Bu bir xalq qəzetidi

ƏDALƏT

## «Bərdəyə kassetli bombadan hücum Azərbaycan xalqına qarşı növbəti soyqırımdır»



**Ermənistan tərəfindən Bərdə şəhərinin kassetli bombalardan atəşə tutulması nəticəsində 14 nəfərin həlak olması və 40-dan çox insanın yaralanması Ermənistanın növbəti vandalizim və barbarlığının daha bir bariz nümunəsidir.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. H.Hacıyev bildirib ki, Ermənistanın beynəlxalq qanunla qadağan edilmiş kassetli bomadan istifadə etməsi Azərbaycan xalqına qarşı növbəti soyqırımdır. O qeyd edib ki, kasetli bombalardan istifadə etməkdə Ermənistanın məqsədi daha çox dinc əhalini qətlə yetirməkdir: "Ermənistan dövlət səviyyəsində bilərəkdən bu terror əməlini həyata keçirir. Bu, birbaşa Paşinyan tərəfindən verilən cinayət əmridir. Biz Azərbaycan olaraq dinc əhalini atəşə tutmaqdan uzağıq. Biz döyüş meydanında ermənilərin cavabını veririk.

Ermənilər düşünməsinlər ki, biz bundan zəifləyirik, iradəmiz qırılır, əksinə biz daha da güclənirik".

## Giriş-çıxışın dayandırıldığı şəhər və rayonların sayı artırıldı




**Ölkə ərazisində sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq Azərbaycan Respublikasınnı Nazirlər Kabineti "Xüsusui karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Qərara dəyişikliklər edib. Dəyişikliyə əsasən:**

Operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Sabirabad şəhəri, Sabirabad rayonunun Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndləri, Şəki şəhəri və Kiş kəndi, Lənkəran rayonunun Şağlaküçə və Şıxəkəran kəndləri, Quba şəhəri, Quba rayonunun Rustov və Zərdabi kəndləri, Mingəçevir şəhəri, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonları ilə yanaşı 2020-ci il 29 oktyabr saat 00:00-dan etibarən Lənkəran şəhərinə, Cəlilabad və Masallı rayonlarına da giriş-çıxış dayandırılır.

Gəncə, Yevlax, Mingəçevir, Lənkəran, Şəki, Şirvan şəhərləri və Göygöl, Samux, Sabirabad, Quba, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonları ilə yanaşı 31 oktyabr saat 00:00-dan 2 noyabr saat 06:00-dək Cəlilabad və Masallı rayonlarında da ictimai nəqliyyatın hərəkəti dayandırılır.

Əbülfət Mədətoğlu
Əməkdar jurnalist

## QƏLƏBƏ QALASI

### Biz yeni tariximizi bu cür ucaldırıq

Bax: səh.2

## Polis əhaliyə müraciət edib: Ehtiyatı əldən verməməli, daim ayıq-sayıq olmalıyıq



**Daxili İşlər Nazirliyi (DİN) əhaliyə müraciət edib. Bu barədə Adalet.az-a nazirlikdən məlumat verilib.**

Müraciətdə deyilir: "Ermənistan terrorçu dövlətdir. Düşmən ölkənin böyük şəhərlərimizdə, insanların sıx toplaşdıqları yerlərdə, ictimai nəqliyyatda terror-təxribat aktları törətməsi istisna deyil.

Odur ki, ehtiyatı əldən verməməli, daim ayıq-sayıq olmalıyıq".

## Deputatlarımız prezident seçkilərini müşahidə edəcəklər



**Milli Məclisin bir qrup deputatı Moldovada noyabrın 1-də keçiriləcək prezident seçkilərini müşahidə etmək üçün bu gün ölkənin paytaxtı Kişinyov şəhərinə səfər edəcək. Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.**

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev, deputatlardan Sabir Hacıyev və Rüfət Quliyev Müstəqil Dövlətlər Birliyi (MDB) Parlamentlərarası Assambleyasının müşahidə missiyasının tərkibində, millət vəkili Ramin Məmmədov isə MDB İcraiyyə Komitəsinin xətti ilə seçkiləri izləyəcəklər. Deputatlarımız müxtəlif seçki məntəqələrində yaradılmış şəraitlə yaxından tanış olacaq, prosesin gedişini izləyəcəklər. Səfər noyabrın 3-də başa çatacaq.

## Xüsusi karantin rejimi uzadıldı

**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti dekabrın 1-dək uzadılıb.**

**Adalet.az-ın məlumatına görə, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb.**

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 145 (5805) 29 oktyabr 2020-ci il | Qiyməti 30 qəpik

# Prezident: «Bərdə sakinlərinin qisası yerdə qalmayacaq»

**Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək.**

**Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.**



## BUNUN ÖZ DƏRDİ ÖZÜNƏ BƏSDİ



**Şahin Rüstəmov (hazırda Konstitusiya Məhkəməsində işləyir) rayonların birində hakim işləyir. Qorbaçovun hakimiyyətdə olduğu illərdi. O vaxt Qorbaçov belə bir fərman vermişdi ki, Sovetlər dövründə kimin mülkü əlindən alınıbsa özünə qaytarılsın.**

**Bir qadın da əlində sənədlər haqqını tələb edir. Amma onun ata mülkünü söküblər, yerinə Partiya Komitəsi üçün bina tikiblər. Və əl çəkmir ki, bu bina ona verilməlidir. Heç cürə başa sala bilmirlər. Axırda deyirlər ver məhkəməyə. Şahin müəllimə də deyirlər ki, sən Allah, bu qadını birtəhər yola gətir.**

**Beləliklə, onu göndərirlər Şahin Rüstəmovun yanına. Qış imiş, qar-qiyamət. Şahin müəllim kabinetinin pəncərələrini açır, özü də əynində qısa köynək, oturur kabinetdə, gözünün də birini çəpləyir.**

**Qadın girir içəri.**

**Şahin müəllim:**

**- Gəl, xala, gəl.**

**Qadın Şahin müəllimi bu vəziyyətdə görüb deyir:**

**- Ay bala, sənin öz dərdin özünə bəsdi.**

**Və iddiasından əl çəkir.**

**İndi bu Makronun öz dərdi özünə bəsdi, görün Allah onu hansı işgəncəyə məruz qoyub.**

**Amma Paşinyanınkı bəd deyil!**

**Aqil ABBAS**

## Baş Prokurorluq: Bərdədə ölənlərin sayı 21 oldu, 70 yaralı var



**2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələrin endirilməsi nəticəsində 21 nəfər həlak olmuş, 70-dən artıq şəxs isə yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.**

Adalet.az-ın xəbərinə görə, bu barədə Baş Prokurorluğun məlumatında deyilir. Mülki əhali arasında xidmət aparan Fövqəladə Hallar Naziriyinin bir əməkdaşı raket atəşi nəticəsində həlak olub, bir əməkdaşı isə ağır yaralanıb. Yaralıların əksəriyyətinin vəziyyəti ağırdır. Hazırda əməliyyat prosesi gedir. Aralarında 15-16 yaşlı uşaqlar da var. Onlardan biri - 16 yaşlı oğlan döş qəfəsindən ağır qəlpə yarası almışdı, təəssüf ki, onun həyatını xilas etmək mümkün olmayıb. Prokurorluq əməkdaşları tərəfindən mövcud zəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

## 2-ci Qarabağ müharibəsinin ilk qadın şəhidi



**Xaçmaz rayonu Qımılqışlaq kənd sakini, hərbi tibb qulluqçusu Arəstə xanım yaralı hərbçilərimizi döyüş meydanından çıxaran zaman həlak olub.**

**O, Azərbaycan Vətən Müharibəsinin ilk xanım şəhidi olub. N saylı hərbi hissədə, hərbi tibb qulluqçusu kimi xidmətə başlayıb və savaşa qatılıb.**

**Qeyd edək ki, Arəstə xanımın atası da 1-ci Qarabağ savaşı zamanı şəhid olub.**

**Allah rəhmət etsin!**

## Türkiyə MN-dən Bərdə terroruna reaksiya



**Türkiyə Müdafiə Nazirliyi rəsmi Tvitter hesabında Ermənistan ordusunun Bərdəyə hücumuna reaksiya verib.**

Nazirlik səhifəsində Bərdədən görüntülər paylaşılaraq, "PKK terror təşkilatı ilə işbirliyi edəcək qədər aciz davranan Ermənistan ordusu atəşkəsi pozaraq mülkü vətəndaşları qətlə yetirməyə davam edir",-sözləri qeyd edilib. Nazirlik həmçinin bildirib ki, Azərbaycanın azad etdiyi yaşayış məntəqələrinin sayı artıq 183-ə çatıb: "Azərbaycan Ordusu cəbhədə mərdliklə və qəhrəmanlıqla mübarizə apararaq, 183 yaşayış məntəqəsini işğaldan azad etdi və etməyə davam edir".

Səxavət MƏMMƏD

## BU MÜHARİBƏDƏN TƏK NARAHATÇILIĞIM MƏTBUATIMIZDIR

Bax: səh.2

## «İran Azərbaycana hərtərəfli şəkildə dəstək verməlidir»

**İran öz ərazilərini işğaldan azad etmək istəyən Azərbaycanın milyonlarla müsəlmanına hərtərəfli və səmimi şəkildə dəstək verməlidir.**

**Bunu İran parlamentinin deputatı Mahmud Abbaszadə Meşkini parlamentin iclasında deyib.**

**Onun sözlərinə görə, İran hakimiyyətin dərin strategiyasını düzgün şəkildə yerinə yetirməlidir.**

**Abbaszadə Meşkini əlavə edib ki, bu məsələdə İranın qeyrətli xalqı, xüsusilə Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Zəncan və digər vilayətlərdəki əhalinin emosiyaları və tələbləri nəzərə alınmalıdır.**

## Şükür Həmidovun oğlu: "Atamın istəyi o idi ki, Qubadlıda şəhid olsun"



**Aprel döyüşlərindəki şücaətinə görə vaxtından əvvəl polkovnik rütbəsi və Milli Qəhrəman adını alan şəhid Şükür Həmidovun atası və oğlu onun haqqında danışıblar.**

Adalet.az AzTV-yə istinadən xəbər verir ki, Ş.Həmidovun atası Nəriman Həmidov Qubadlı şəhəri uğrunda döyüşlərdə şəhid olan oğlunun bir neçə gün əvvəl onunla telefonla danışdığını deyib: "Dedi "ata, sabah bəlkə siz tərəfə getdik". Dedim, bala, gedəndə dizlərini yerə qoyub Nağıllı bulaqdan doyunca su içərsən. Dedi "Ata, hələ tezdi". Şəhidin oğlu Nurlan Həmidov atası haqda danışarkən deyib ki, o, öz xalqı üçün çox çalışırdı: "İstəyi o idi ki, Qubadlıda şəhid olsun. Öz istəyinə də nail oldu. Arzu edirik ki, bütün torpaqlarımız alınsın, atamın və bütün şəhidlərin qanı yerdə qalmasın".

## Ermənilər Tərtəri yenidən qrad atəşinə tutub

**Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun ərazisini atəşə tutmaqda davam edir.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, ermənilər rayonu BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemlərdən və toplardan yenidən atəşə tutub.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## ÖNLƏRİNDƏ BAŞ ƏYİLƏSİ İNSANLAR!



**Bir hospitaldayam. Hansı hospital olduğu vacib deyil. Yaralı əsgərlərimizlə görüşürəm. Hamısının bir arzusu var: tez sağalıb yenidən döyüşə atılmaq.**

**İki qəribə hadisənin şahidi oldum. Tibb bacısı əsgərin ayaqlarını yuyur. Bu vaxt əsgərin anası girdi palataya və bunu görüb tibb bacısını qucaqlayıb ağladı:**

**- Saa qurban olum, ay qızım.**

**(Ardı 2-ci səhifədə)**

## Pakistan səfiri ermənilərin Bərdədə törətdiyi terror əməlini pislədi

**Pakistanın Azərbaycandakı səfiri Bilal Hayee Ermənistanın Bərdədə mülki insanlara qarşı törədiyi terror əməlini pisləyib.**

Səfir bu barədə öz "Twitter" səhifəsində yazıb. Səfir bildirib ki, Ermənistanın bu əməli pislənməlidir: "Bu gün Azərbaycanın Bərdə şəhərində çoxsaylı insan tələfatı ilə bağlı üzücü xəbər aldıq. Beynəlxalq səviyyədə qadağan olunmuş silahdan mülki əhaliyə qarşı istifadə qəbuledilməzdir və bu əməl birmənalə şəkildə pislənməlidir.

Möhkəm dayan Azərbaycan!".

## İlham Əliyev: Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlının bir neçə kəndi işğaldan azad edildi



**Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Ədilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Twitter” səhifəsində bildirib.

## *Azərbaycan XİN bəyanat yaydı*

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb.**

XİN-dən Adalet.az-a verilən məlumata görə, bəyanatda deyilir:

”28 oktyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələri Azərbaycanın Bərdə şəhərini ”Smerç” yaylım atəşli reaktiv sistemdən raket atəşinə tutub və bu hücum mülki əhali arasında ağır itkilərə səbəb olub. Bərdə şəhərinə xaincəsinə edilən raket hücumu nəticəsində uşaqlar da daxil olmaqla, 21 mülki şəxs həlak olub və 70-dən çox insan ağır yaralanıb.

Hərbi hədəf əlamətləri olmayan, münaqişə zonasından çox uzaqda yerləşən şəhərdəki yaşayış məntəqələrinin növbəti dəfə hədəfə alınması Ermənistanın terrorçu mahiyyətinin bir daha nümayiş etdirir.

Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində dinc əhalinin məqsədyönlü şəkildə qətlə yetirilməsi soyqırımı, müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir.

Bu, Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır və bu cinayətə görə ölkənin Baş naziri və Müdafiə naziri də daxil olmaqla Ermənistan rəhbərliyi tam şəkildə məsuliyyət daşıyır.

Rəsmi olaraq elan edilmiş humanitar atəşkəs dövründə və hər iki dövlətin Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupu həmsədrləri ilə Cenevrə görüşü ərəfəsində Azərbaycanın yaşayış məntəqələrinə və mülki şəxslərə hücumun edilməsi, Ermənistanın məqsədinin danışıqları pozmaq, gərginliyi artırmaq və üçüncü dövlətləri münaqişəyə cəlb etmək olduğunu açıq şəkildə göstərir.

Ermənistanın vəhşi əməlləri barədə susmaq və Azərbaycan dinc əhalisinə qarşı törədilən bu cinayətləri cəzasız qoymaq, cinayətkarları növbəti vəhşiliklərə təhrik etməyə bərabərdir. Beynəlxalq ictimaiyyət Ermənistan tərəfindən beynəlxalq hüququn pozulması, məqsədyönlü şəkildə mülki şəxslərin qətlə yetirilməsinin qarşısının alınması üçün zəruri addımlar atmalı və bu ölkənin silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməlidir.

Azərbaycan bu qeyri-insani hərəkətlərə görə cavabdeh olan şəxslərin ədalətdən yayınmaması və məsuliyyətə cəlb olunması üçün əlindən gələni əsirgəməyəcək”.

## *Şəhid ailəsi və əlillərə 24 ev verildi*

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz bu gün möhtəşəm zəfərlərlə şanlı tarix yazır. Doğma torpaqlarımızın işğaldan azad edildiyi barədə cənab Prezident tərəfindən elan edilən Qələbə xəbərləri şəhid ailələri və Qarabağ müharibəsi əlillərində də sonsuz qürur, iftixar hissi yaradır.**

Bu fikirləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Şəki və Oğuz rayonlarında yeni inşa olunmuş fərdi yaşayış evlərinin təqdim edildiyi şəhid ailələri və Qarabağ müharibəsi əlilləri vurğulayıblar.

İki rayonda ümumilikdə 24 ev (o cümlədən Şəkidə 9, Oğuzda 15 ev) təqdim edilib. Oğuzun Gənclik qəsəbəsində keçirilən tədbirdə Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov, Oğuz rayon İcra Hakimiyyəti başçısının müavini Etibar Yusifov iştirak ediblər.

Görüşdə bildirilib ki, Ordumuzun bu haqq savaşında əldə etdiyi hər zəfər, ərazilərimizin Ermənistanın işğalından azad edilməsi, düşmənə vurulan sarsıdıcı zərbələr Vətən uğrunda canından keçən qəhrəmanlarımızın ruhunu da sevindirir. Şəhidlərimizin qanı yerdə qalmır, onların qisası layiqincə alınır. Ali Baş Komandanımız İlham Əliyevin qeyd etdiyi kimi ”Şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb.

Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşlərdə demişdim ki, biz onların qisasını alacağıq. Bizim şəhidlərimizin qanı yerdə qalmayacaq və qalmır”.

Qeyd edilib ki, dövlət başçısının tapşırığı əsasında şəhid ailələrinin, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş vətəndaşların mənzillə təmin olunması tədbirləri də uğurla davam edir. 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, bu gün təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 688 mənzil və fərdi ev (o cümlədən 554 mənzil, 134 fərdi ev) verilib. Digər evlər, mənzillər də ilin sonunadək veriləcək.

Ümumilikdə ötən dövrdə 8276 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim edilib.

Yeni fərdi evlərlə təmin olunan vətəndaşlar Azərbaycanı bütün istiqamətlərdə daim Qələbələrə doğru aparan və eyni zamanda, şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə xüsusi qayğı göstərən Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə edib, rəşadətli Azərbaycan əsgərinə yeni-yeni Qələbələr arzulayıblar.

# QƏLƏBƏ QALASI

## Biz yeni tariximizi bu cür ucaldırıq

**Qarşımda təqvim var. Baxıram, 29 oktyabr 1993-cü il. Bu tarix qara və diqqətçəkən şriftlərlə yazılıb. Çünki Zəngilanın işğal günüdü. 27 il əvvəl işğal olunub Zəngilan. Dərhal təqvimi geri vərəqləyirəm. 18 oktyabr 2020-ci il. Bu tarix isə ürəyimizə, yaddaşımıza, bütün varlığımıza yazılıb. Azərbaycanda hər kəsin andığı və qürur hissiylə təkrar etdiyi tarixdi bu. Çünki həmin gün Zəngilan işğaldan azad edilib!..**

Mən bu tarixləri təsadüfən xatırlatmadım. Həmin tarix arasındakı zaman kəsiyini biz utancla, sıxıntıyla, həsrətlə, ağrı-acıyla yaşamışıq. Gah ümidimiz öləziyib, gah əlimizi hər yerdən üzmüşük, gah da sıxıb ”ah” çəkmişik. Ürəyimizi yara edən həsrətin ağrısını sürünə-sürünə, qıvrıla-qıvrıla yaşamaqla, məhkumluğumuzla günləri, ayları, illəri başa vurmuşuq. Və bir gün...

Bu günün qəhrəmanı da, müəllifi də xalqımızın qarantı olan Prezidentimiz, Ordumuzun Ali Baş Komandanıdı. Artıq hər kəs uşaqlı-böyüklü, qızlı-gəlinli, xüsusilə yaşlı vətəndaşlarımız televizorun önündən bir an da olsun çəkilmək istəmir, hamı xəbər gözləyir. Hamının gözü ekranda prezidentimizi axtarır. Çünki o, bizə sevinc xəbərlərini elə bir qürur hissi ilə çatdırır ki, Azərbaycanlı olduğunla fəxr edirsən.

Çünki sənin prezidentin indi dünyanın gözü önündədir. Hamı ondan danışır, hamı ondan ixtibas gətirir, hamı onun dəsti-xəttini müdafiə edir. Hətta bizi sevməyənlər artıq Ali Baş Komandanımızın məntiqinin qarşısında susur, özlərinin yanlışlığını etiraf edirlər.

Bəli, dünya mediasına açıq olan Azərbaycan prezidenti özünün müsahibəsi ilə hətta Amerikanın ”dil-dil ötən” media təmsilçisini susdurdu.

Ona həm tarix dərsi keçdi, həm də məntiq. Və amerikalı jurnalist məcbur olub etiraf etdi ki, **”Cənab Prezident, siz Amerikanın da siyasətini mükəmməl bilirsiniz!”.** Onun bu etirafını həm təmsil etdiyi ölkədə, həm də dünyanın hər yerində yəqin ki, oxuyanlar, izləyənlər duydular. Gördülər ki, haqq kimin yanındadı, ədalət kimin tərəfindədi. Həmcinin Fransanın və Yaponiyanın ”Nikkei” və ”Fiqaro” qəzetlərinin müxbirlərinin cənab prezidentlə olan müsahibələrində onların tutduğu mövqe, dilə gətirdikləri qərəzli suallar təmkinlə, həm də məntiqlə elə cavablandırıldı ki, bu ”təxribatçı” yazarlar sonda aciz duruma düşdülər. Bax, budur Azərbaycan Prezidentinin mövqeyi... Bax, budur Azərbaycan gerçəkliyi...

30 il gözləmişik bu məqamı... 30 il haqqın, ədalətin bir gün oyanacağına ”mən varam” deyəcəyinə ümid bağlamışıq. Və şükürlər olsun ki, o məqam yetişdi, o ümid göyərdi. Təbii ki, bunun da müəllifi, bunun da reallaşmasının əsas səbəbkarı Ali Baş Komandanımız oldu. Qubadlının işğaldan azad edilməsi ilə bağlı xalqımıza müraciət edən Ali Baş Komandan bildirdi ki, ***”Bu gün Azərbaycan Ordusunun zəfər yürüşü davam edir. Biz öz torpaqlarımızda döyüşürük, öz torpaqlarımızı azad edirik. Bizim heç kimlə torpaq iddiamız yoxdur. Bizim bir tələbimiz var - işğalçı ordu çıxsın torpaqlarımızdan! Rədd olub getsinlər! Ondan sonra sülh barədə danışmaq olar. Bu gün kimsə şərt diqtə edə bilməz. Artıq şərtləri biz diqtə edirik!”.***



Həyatımızn reallığı, günümüzün sevinc və qürur dolu məqamıdır bu çıxışın canı, qanı, ruhu. Çünki biz çox qəribsəmişdik bu qələbələr üçün, çox çəkmişdik qələbə həsrətini. Axır ki, xalqımız Qələbə sözünün möhtəşəmliyinin işığına büründü.

Özü də elə bir işığa ki, o, dostlarımızı, qardaşlarımızı, bizimlə bir olanları sevindirdi, nurlandırdı. Bizə yad olanları, bizə kəm baxanları kor etdi! Düşünürəm ki, mənim bu fikirlərim qələbəmizin ancaq bir anını, bir nüansını ifadə etmək gücündədir. Ona görə ki, o Qələbənin ölçü-biçisi yoxdur. Axı, ermənilərin 1988-ci ildən 1994-cü ilə qədər işğal etdiyi ərazilərimizin böyük bir hissəsini biz bir aya geri aldıq. Təsəvvür edin ki, bir ayda 4 rayon, 4 şəhər, 4 qəsəbə, 164 kənd işğaldan azad edilibdi. Biz bu ilin sentyabr ayının 27-nə qədər yalnız iki dəfə sevinmişdik. İlk dəfə 1994-cü ilin yanvarında Horadiz və 20 kəndimiz işğaldan azad ediləndə, bir də 2016-cı ilin Aprel döyüşündə! Doğrudur, Naxçıvan ərazisində də ordumuz möhtəşəm bir qələbəyə imza atmışdı. Orada da həyatın vacib olan yüksəklik və böyük torpaq sahəsi azad edilmişdi.

Amma bütün bunlar bizim 27 sentyabrdan sonrakı qələbələrimizin bünövrəsi idi. Mən indi anlayıram ki, Ali Baş Komandanımız səbrlə, uzaqgörənliklə ordumuzu və bizi qələbəyə hazırlayırmış. Onun yürütdüyü xarici siyasət, ölkə daxilindəki sabitlik, xüsusilə hərbi sahəyə böyük diqqət göstərməsi zaman-zaman üst-üstə qo-




yulan qələbə kərpicləri imiş. Bu gün o kərpiclərdən Qələbə Qalası tikilir!

Ölkə Prezidentinin xarici media mənsublarının suallarını cavablandırarkən kəskin şəkildə söylədiyi bir fikir sıravi vətəndaş kimi mənə xüsusilə böyük qürur hissi yaşatdı. Belə ki, prezidentimiz vurğuladı ki, ***”Minsk qrupunun bu illər ərzindəki fəaliyyəti heç bir bəhrə, nəticə vermədi. 28 il heç bir irəliləyişə, nəticəyə gəlib çıxmadı. Yalnız vədlər, yalnız bürokratik prosedurlar var və bu gün bizə belə gəlir ki, əslində, həmsədrlərin fəaliyyəti münaqişənin həllinə deyil, onun dondurulmasına yönəlmişdi”.*** Doğrudan da artıq bu mənasız qurumun bölgəyə mənasız səfərləri, mənasız bəyanatları bizi diksindirirdi. Hətta onların monitorinq keçirən Kaspirşikin açıqlamaları da gülünc olmaqla ikrah doğururdu.




Demək, bu səbəbsiz deyilmiş. Azərbaycan xalqı hiss edibmiş ki, bu beynəlxalq qurum oyunbazlıqla məşğuldur. Əgər elə olmasaydı, monitorinq keçirən Kaspirşik ermənilərin işğal etdikləri torpaqlarımızda hansı hərbi qüvvələri yerləşdirdiyini, hansı bunkerləri, istehkamları qurduğunu görərdi və buna ən azından etiraz edərdi. Çox təəssüf ki, biz bunun şahidi ola bilmədik. Bu da o məntiqi ortaya qoyur ki, deməli, Azərbaycan Prezidentinin də dediyi kimi, ***”Tərəfsiz olmağa borclu olan həmsədrlər əslində işğalçının tərəfində imiş. Onların dövlətləri bu və ya digər yollarla işğalçını silahlandırırmış. Onun acı nəticəsi bu gün ortaya çıxıb”.***

Bizə qarşı hay-küylü iddialar irəli sürən dövlətlərin absurd məntiqi var. Onlar vurğulayırlar ki, guya Azərbaycan tərəfindən muzdlular döyüşür. Əsl həqiqətdə isə həmin döyüşən muzdlular Ermənistanın yanındadır. Onların gəlişini təşkil edən və maliyyələşdirən də elə problemin dondurulmasına cəhd edənlərdi. Lakin bu cəhdi edənlər artıq özləri gerçəkliyin qarşısında çaşıb qalıblar. Bu gerçəkliyi isə Ali Baş Komandanımız bəyan edib. O bildirib ki, ***”Bu gün bizi heç kim yolumuzdan döndərə bilməz, heç kim bizə təyziq göstərə bilməz, heç kim bizdən atəşkəs tələb edə bilməz. Çünki biz otuz il gözləmişik. İndi isə artıq torpaqlarımızı özümüz azad edirik, özü də heç kimin köməyi olmadan. Biz həm də BMT-nin dörd qətnaməsini icra edirik. Azərbaycanın ərazi bütövlüyünü tanıyan dövlətlərin qərarını yerinə yetirirk. Ona görə də bizim işimiz dövlət sərhəddimizi bərpa etmək, ərazilərimizdəki terroçuları, işğalçı ordunu qovub çıxarmaq, məhv etməkdi. Bu işi sona qədər də davam etdirəcəyik!”.***

**Bu gün hər bir Azərbaycanlının qürur hissiylə təkrarladığı bu sözlər artıq tarixi gerçəklikdi. Biz gerçək tariximizi Ali Baş Komandanımızın rəhbərliyi altında qələbələrlə yazırıq. Çünki Qarabağ Azərbaycandır!**

**Əbülfət Mədətoğlu**
**”Ədalət” qəzetinin baş redaktorunun birinci müavini, Əməkdar jurnalist**

## Ərkan Özoral: Qazandığımız böyük zəfər...

**Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi altındakı Qurtuluş Müharibəsində qazandığımız böyük zəfəri taclandıran Cümhuriyyətin quruluşunun 97-ci ildönümünü böyük coşqu ilə qeyd edirik.**

Bunu Türkiyənin Azərbaycandakı səfiri Ərkan Özoral söyləyib.




”100 il öncə Qurtuluş Müharibəsində Anadoluya ən böyük yardım qardaş Azərbaycandan gəlib. O dönəmdə ölkəsini tərk etmək məcburiyyəti ilə üzə qalan azərbaycanlı ziyalılar da Türkiyəni vətəni olaraq görüb, cümhuriyyətimizin quruluşuna önəmli töhfələr veriblər. Bu gün də Azərbaycan işğal altındakı ərazilərini azad etmək üçün böyük mübarizə aparır. Cümhuriyyətin nailiyyətləri nəticəsində dünyanın ən güclü ölkələrindən birinə çevrilən Türkiyə bu haqlı mübarizədə can Azərbaycanın yanındadır. Hamımızın ürəyi Azərbaycanın ərazilərini azad etməsi, qardaşlarımızın illər öncə tərk etmək məcburiyyətində qaldıqları yurdlarına, yuvalarına geri dönməsi üçün döyünür, əldə edilən hər zəfəri sevinc göz yaşları ilə qarşılayırıq.

Bu böyük ildönümündə Cümhuriyyətimizi bizə ərməğan edən Qazi Mustafa Kamal Atatürk və silahdaşları ilə Türkiyənin və Azərbaycanın qurtuluşu, təhlükəsizliyi, rifahı və firavanlığı uğrunda həyatını fəda edən bütün şəhidlərimizi, Cümhuriyyətimizə xidməti keçənləri rəhmət və şükranla anırıq. Yaşasın Türkiyə və Azərbaycan qardaşlığı! Yaşasın Cümhuriyyət!”, - o qeyd edib.

*Aqil ABBAS*

# ÖNLƏRİNDƏ BAŞ ƏYİLƏSİ İNSANLAR!

**(əvvəli 1-ci səhifədə)**

**Tibb bacısı:**
**- Mən də bu oğullara qurban olum.**
**Bir az keçmiş başqa bir tibb bacısı başıalovlu baş həkimi axtarır.**
**Baş həkim:**
**- Nolub, ay qızım?**
**- Həkim, üçüncü palatada bir yaralı əsgər qaçıb.**
**- Hara qaçıb, necə qaçıb?**
**- Yanına döyüşçü dostları gəlmişdi, onlara qoşulub qaçıb. Bir dənə də məktub qoyub.**
**Baş həkim məktubu alıb oxuyur.**
**”Mənim iki ayağım və sağ qolum sağdı. Mənim qardaşlarım ön cəbhədə düşmənlə vuruşur. Mən onları tək qoya bilmərəm. Getdim ön cəbhəyə, məni bağışlayın”.**
**Yaralı əsgərlərin ana və atalarına!**
**Hörmətli analar və atalar!**
**Xəstəxanalarımızda və hospitallarımızda sizin o yaralı balalarınıza həkimlər, tibb bacıları elə bir qayğıyla, elə bir diqqətlə yanaşırlar ki!**
**Mən o övladları yetişdirən sizlərin və həmin övladlara öz qardaşları, balaları kimi qayğı göstərən tibb işçilərinin önündə baş əyirəm!**
**Özü də and olsun Həzrət Abbasa, yuxarıda qeyd etdiyim kimi, hamısının bir arzusu var - tezliklə yenidən döyüşə atılmaq!**
**Və sonda. Şəkil paylaşmağı sevmirəm və heç kəsə də məsləhət görmürəm.**

Səxavət MƏMMƏD

# BU MÜHARİBƏDƏN TƏK NARAHATÇILIĞIM MƏTBUATIMIZDIR



*Müharibənin artıq bir ayı tamam oldu. Əslində cəbhə bölgəsinə ayın 26-da gəlmişəm. Gəlişimin səhərisi döyüşlər başladı. Bu bir ay ərzində çox şey yaşadım. Cəbhənin şimal cəbhəsində hər yerdə oldum. Ağdamın postlarından tutmuş Murova qədər döyüşlərin getdiyi hər yer bölgəni qarış-qarış gəzmişəm. Postda gecələdiyim də olub, bir mövqe seçib qaldığım da. Qələbə sevinci də çox olub, şəhid olan dostlarımı dəfn etməyimiz də. Şəhid olanlarla bağlı bir cümlə belə yazmamışam. Yaslarını tam qələbədən sonra saxlayacam. Yaralı dostlarım da var. Yarası sağalar sağalmaz yenidən cəbhəyə yola saldığım da. Psixoloji cəhətdən özümü baş verəcəklərə hazırlamışam.*

*Müharibə asan deyil. Uşaqlıqdan bunun içində böyümüşəm. Özümdə bir şeyi kəşf etdim ki, ilk dəfə uşaqlığımın keçdiyi çadır şəhərciyinin yerləşdiyi yerdən keçəndə çönüb baxmadım belə. Bir ümid yaranıb.*

*İllərdir hərbi məmurlarla bağlı tənqidi məqalələr yazmışam. Necə haqlı olduğumu da gördüm.*

*Bəzən mənə təəccüblə baxan adamlar görürəm. Hamısı deyir, uşaqsan, oraları hardan bilirsən. Qarabağ müharibəsini araşdırmağım çox kömək edir. Ərazini kənd-kənd yox, post-post tanıyıram. Xəritə də ən sevdiyim iş. Keçmiş döyüşçülər, bir çoxuna keçmiş də demək olmur, postların yerin deyəndə gülürlər. Yəni, dediyim yerlər ağızdan eşitdiyim yox, bildiyimdir.*

*İlk iki həftə nəinki icazəm olub, icazəli işləməyi aşağı düşəndə bilmişəm.*

*Bu işdə ən önəmli şey ərazini tanımaq və yaxşı bələdçi seçməkdir. Bundan əlavə düzgün mövqe seçmək həm işini asanlaşdırır, həm də təhlükəsizliyin qarantili olur. Bu peşənin ən önəmli cəhətlərindən biri də, xəbər ardınca gedəndə, özünün xəbər olmamağındır.*

*Bəziləri iddia edir ki, hərbdən və döyüşdən ancaq hərbi məktəb qurtaranlar yaza bilər. Onların məntiqi ilə aksiyadan Polis, yanğından da ancaq FHN akademiyalarını qurtaranlar yazmalıdır. Bu müharibədən tək narahatçılığım mətbuatımızdır. Bu boyda tarix ancaq hərbçilərdə olan smartfon telefonların ümidinə qalıb.*

*Müharibə davam edir.*

## *Ərdoğan: Putinə dedim ki, Qarabağda qırmızı xətt...*

**Vladimir Putinlə Qarabağla bağlı danışanda qırmızı xətt barədə də dedim.**



Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. O bildirib ki, Putinə məsələnin birlikdə həlli üçün təkliflər səsləndirib:

”Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən 30 il ötməsinə baxmayaraq, Minsk üçlüsü problemi həll etmədi. Hər iclasda oturdular, danışdılar, getdilər. Ermənistan yenə hücum etdi və Azərbaycan əks-hücuma keçdi, proses davam edir.

Liderlə bu məsələni danışırıq. Sonuncu dəfə Rusiya Prezidenti Vladimir Putinlə ətraflı danışdım. Putinə dedim ki, istəsəniz, gəlin, Qafqazdakı münaqişəni birlikdə həll edək.

Siz Ermənistanın Baş naziri Nikol Paşinyanla, mən də İlham qardaşımızla danışım. Nümayəndələrinizi, XİN rəhbərlərinizi göndərin, qərar verməliyik: bu işi həll edirik, ya yox.

Dedim mən səmimiyəm, sizin də səmimi olduğunuza inanıram. Gözəl danışıq oldu. Təbii ki, qırmızı xətlərimizi də dedim. Qırmızı xətlərimiz keçilsə, atamızın oğlu belə olsa, göz yummayacağıq”.

*Cavid İsmayıl: Xalq hərəkatı təzə başlayanda rəhmətlik anam bir dəftər tutmuşdu. Efirlərdə səslənməyən, amma Azadlıq meydanına toplaşanların əzbər bildiyi şeirləri ora yazırdı. O dəftər indi də durur. Nə şeirlər var orda...*



*Eldar Baxışın bu şeirini də ilk dəfə orda oxumuşdum. Zori Balayanın Azərbaycana ərazi iddiaları ilə zəngin olan "Ocaq" kitabına cavab olaraq yazmışdı bunu. O vaxtlar məşhur olan bir bu şeir idi, bir də İsa Qəmbərin Zori Balayana elmi cavabı. Qubadlının azad olunduğu bu günlərdə bu torpağın böyük övladı Eldar Baxışın şeirini paylaşmaqda fayda görürəm. Ruhu şad olsun!*

## *Zori Balayana məktub*

**O nədir yazmısan Zori Balayan?**
**Kür-Araz deyirsən-kəkələyirsən.**
**Xırda budaqların üstə oturub,**
**Böyük budaqları silkələyirsən.**
**Böyük budaqların böyük qolu var,**
**O qolun önündə qol dura bilməz.**
**Atandan, dədəndən, babandan soruş,**
**Hər adam hər daşı qaldıra bilməz.**
**Daş daşa söykənib, qaya qayaya,**
**Söz şerə bu daşdan, qayadan gəlir,**
**Azar var,adamın öz azarıdı,**
**Azar var, toxumdan, mayadan gəlir.**
**Tamam unutmusan vaxtı, zamanı**
**Bir də görmüsən ki, iş işdən keçib.**
**Bu azar tək sənin azarın deyil,**
**Bu azar hampadan, keşikdən keçib.**
**Nə isə,**
**Sənə bir qarmaq atıblar,**
**Nə isə**
**Sənə bir yanaşan olub,**
**Yazıq Araz çayı nə vaxtdan axı,**
**Erməni dilində danışan olub.**
**Suyun su dili var, adamın adam,**
**Tənək yaranıb ki, qora yaranıb.**
**Adamın ki dili, suyun dilindən,**
**Küləyin dilindən sonra yaranıb.**
**Hələ biz doğulub dil açmamışdan,**
**Ayaq açmamışdan, qol açmamışdan,**
**Xetlər dənizlərə, Hunlar dağlara,**
**Şumerlər düzlərə yol açmamışdan.**
**Ağaclar küləklə danışırdılar,**
**Arılar çiçəklə danışırdılar,**
**Durnalar ləléklə danışırdılar,**
**Qartallar fələklə danışırdılar...**
**...O nədir yazmısan, Zori Balayan,**
**Kür-Araz deyirsən-kəkələyirsən.**
**Xırda budaqların üstə oturub,**
**Böyük budaqları silkələyirsən.**
**Böyük budaqları silkələməklə**
**Könlün istəyəni ala bilməzsən.**
**Bircə qanadımı bircə çöpümü,**
**Bircə yarpağımı sala bilməzsən.**
**Böyüyün dünyada böyük dərdi var,**
**Xırda gərək dura xırda yerində.**
**Dəniz gərək dura dəniz yerində,**
**Ada gərək dura ada yerində.**
**Dəniz qala-qala dənizliyində,**
**Adalar döyməyə döşünə gərək.**
**Heç vaxt qarışmaya xırda budaqlar**
**Böyük budaqların işinə gərək.**
**Böyük budaqların böyük işi var,**
**Bu dünya bu saat od içindədi,**
**Silah düzəldirlər silah dalınca,**
**Azot içindədi, yod içindədi.**
**Bu dünya bu saat hər həftəsinin,**
**Gününün, ayının dərdini çəkir,**
**Kökünün, soyunun dərdini çəkir,**
**Qışının, yayının dərdini çəkir,**
**Otunun, suyunun dərdini çəkir...**
**Dünya nə haydadı, sən nə haydasan,**
**A köhnə palazı sırıyan oğlan.**
**İrəvan dilində xoruzlanırsan,**
**Moskva dilində zarıyan oğlan.**
**Havayı axıtma göz yaşlarını,**
**Yaş görən adamlar yaşı tanıyır.**
**Moskva min ilin Moskvasıdır,**
**Səni də, məni də yaxşı tanıyır.**
**Sən Zori Balayan,**
**Mən Eldar Baxış,**
**Baxıram eləcə zoğallayırsan,**
**Keşiş zurna çalır, sən də keşişin,**
**Qara zurnasını sığallayırsan,**
**Sığalla, sığalla-qara zurnalar,**
**Yastı balabanlar yatır sığala.**
**Deyəsən, bir azca qolun ağrıdı,**
**Allahın altında kərə yağ ola.**
**Günah məndədi ki, "Kiçiyim" - deyib,**
**Durub oynayıram hər havana mən,**
**Sevan söyləyirəm Göyçə gölünə,**
**Yerevan deyirəm İrəvana mən.**
**Qaxdan İrəvana, Qaxdan Qafana**
**Fındıq göndərirəm, qoz göndərirəm.**
**Mənim kəndlərim var odun yandırır,**
**Sənin kəndlərinə qaz göndərirəm.**
**Hələ yüzdən biri, mindən biridi**
**Bu, mənim dərdimin, mənim sərimin,**
**Samvel Azərbaycan xalq şairidir,**
**Ancaq adı yoxdu Əli Kərimin.**
**Bax, bir ürəyimin genişliyinə,**
**De kimə lazımdı bu haray-həşir?..**
**Sənin ürəyinə bir ovuc torpaq,**
**Mənim ürəyimə dünya yerləşir.**
**O nədir yazmısan Zori Balayan,**
**"Bala" da bizimdi, "zor" da bizimdi.**
**Ölmək istəyirsən gəl Qarabağa,**
**Kəfən də bizimdi, gor da bizimdi.**
**Ordan apararam öz kəndimizə,**
**Tutub apararam göyə çıxasan,**
**Ancaq qorxuram ki, gedəsən ora**
**Mənim kəndimə də yiyə çıxasan.**

# *Məhərrəm Əliyev:* Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir!

**Cənab Ali Baş Komandan İlham Əliyevin qətiyyət, iradə, əzm, milli ruh və yüksək idarəçilik dəyərləri və rəhbərliyi, xalqımızın vətənpərvərlik duyğularının birgə həmrəyliyi ilə Azərbaycan ordusu tarixinin ən şanlı və şərəfli qələbəsini qazanmaqdadır! Nəsillərdən bizə miras qalan ən ülvi hislərimizlə qələbə dəyərlərini gələcək nəsillərə daşıyırıq.**

Adalet.az-ın məlumatına görə, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyev deyib.

Onun sözlərinə görə, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək dinc sakinlərimizin qətlinə yönəlmiş məqsədlə bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutması, düşmən ordusunun açıq-aşkar yeni ərazi iddialarının və havadarlarına böyük etiqad və inamla regionda münaqişənin daha da gərginləşdirilməsi niyyətlərinin riyakar nümunəsidir:

"Azərbaycanın region və dünyada xüsusi əhəmiyyət və sürətlə artan nüfuzu, beynəlxalq təşkilatlarda həmsədrlik, söz haqqının olması, həyata keçirilən strateji layihələrlə ölkəmizin dünya iqtisadiyyatına verdiyi töhfələr düşməndə qıcıq və qısqanclıq yaratması, özünün müqayisəolunmaz dərəcədə bütün sahələrdə geriləməsinin nəticəsidir və təzahürüdür. Milli Ordumuz sahib olduğu qətiyyət sayəsində Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması ordumuzun çeviklik və peşəkarlıq səviyyəsinin çox yüksək olmasını nəinki düşmənə bütün dünyaya nümayiş etdirdi. Qısa zamanda əldə olunan nailiyyətlər peşəkar idarəçilik, döyüş hazırlığının və hərbi vətənpərvərlik ruhunun daima yüksək olması şəxsi heyətin uğurla irəliləyərək Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikalarının aşkar edilərək məhv edilməsi və onların hərəkət trayektoriyasına nəzarət aparılmasına imkan verir. Azərbaycanın dünya miqyasında 50 ən güclü orduya sahib dövlətlərin siyahısında olması bizi çox qürurlandırır və yalnız qələbə ümidlərini yaşadır!

***Hər bir Azərbaycan vətəndaşı artıq əmindir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası Cənab Ali Baş Komandanın güclü siyasəti və iradəsi, ordumuzun əzmi və qətiyyəti, xalqımızın həmrəyliyi sayəsində mümkündür.***

### *Vətən çağırışına olan mənəvi səfərbərliyimizin qarşısında düşmən tab gətirməyəcək!*

İllərlə düşmən tapdağı altında olan torpaqlarımızın çağırışına canı, qanı, ruhu və bütün varlığı ilə irəliləyən hər bir azərbaycanlı igid oğullarımıza, bu müqəddəs çağırışa "canım fəda" deyib şəhidlik zirvəsinə ucalan övladlarımıza və onlarla birgə yetişən və yetişməkdə olan nəsillərimizə qələbə sevincimizi yaşatmaq qədər ülvi hissləri yaşadığımız üçün çox qürurluyuq. Torpaqlarımızı işğaldan azad etməklə nəinki ərazi bütövlüyümüzü təmin edirik, eyni zamanda illərlə kimsəsiz qalan, təhqir olunan, dağıdılan, ancaq hər daşı bir tarix danışan abidələrimizi, irsimizi, dəyərlərimizi və ənənələrimizi millətimizə geri qaytarmış və yenidən qazanmış oluruq. Azərbaycan hər zaman dünyada sülhün, tolerantlıq və dialoqun, mədəniyyətlər və sivilizasiyalara xüsusi hörmət, ehtiram və qayğısı ilə seçilən öncül ölkələr siyahısındadır. Ancaq buna baxmayaraq işğal altnda olan torpaqlarımızda tarixi abidələrimiz, maddi-mənəvi irsimizin qəsdən və riyakarcasına dağıdılması və təhqir olunması beynəlxalq hüquq və ədalət prinsiplərinə sığmayan vandalizm aktının şahidi oluruq. İşğaldan azad olunan rayon və kəndlərimizdə abidələrimizi, səfalı guşələrimizi yararsız və dağıdılmış vəziyyətdə görmək çox ağrılıdır! Müharibə şəraitində belə sahib olduğu humanizm dəyərlərinə sadiq qalaraq mülki insanlara, tarixi-dini abidələrə, sosial-ictimai obyektlərin təhlükəsizliyinə xüsusi həssaslıq və diqqətlə yanaşan Cənab Ali Baş Komandanımızla hər birimiz qürur duyuruq.

### *Hər bir şəhid olan hərbçi və mülki şəxslərimizin qisasını alacağıq!*

***Ermənistan hərbçilərinin hədəfinə çevrilmiş Azərbaycanın mülki əhalisinin raket və top atəşinə tutulması nəticəsində 69 nəfər həlak olmuş və 314 nəfər yaralanmışdır. Bu bir daha riyakar düşmənin hərb meydanında ağır məğlubiyyətinin nəticəsidir. Cəsədlərinin toplanmasına belə maraqlı olmayan düşmən ölkəsinin real siyasi, ictimai, sosial-iqtisadi vəziyyətinin necə olduğunu açıq-aşkar nümayiş etdirir. Düşmənin dünya ölkələrinə əsassız yalvarışları, müraciətləri nəticəsiz qaldığı halda Azərbaycan ordusu öz Ali Baş Komandanının güclü siyasəti və qətiyyətinə inanaraq, iradə və əzmi ilə zəfər çalır!***

Cənab Prezident İlham Əliyev çıxışlarında da hər zaman xüsusi əhəmiyyətlə hərbi texnika və avadanlıqların istehsalı istiqamətində uğurlu inkişafı qeyd edərək daima yeni və strateji planların icrasını vurğulamışdır. Bütün həyata keçirilən fəaliyyət və uğurlu nəticələr bu gün ölkəmizin hərbi po-



tensialının, döyüş qabiliyyətinin ən yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir və ordumuzun potensialını, güc və peşəkarlığını sübut etdirir. Ölkəmizin hərb potensialı və resursunu düzgün qiymətləndirə bilməyən, statistik göstəriciləri analiz etmək qabiliyyətinə malik olmayan Ermənistan hökuməti və dövləti ölümə göndərdiyi minlərlə əsgərlərin ana-atalarına cavab verməli olacaq! Azərbaycan öz ərazi bütövlüyü və torpaqları uğrunda döyüşür və zəfər çalır ancaq Ermənistan acgöz və riyakarcasına yeni ərazi iddiaları ilə, terror planları və regionda sülh və ədalət prinsipləri pozmaq məqsədləri ilə vətəndaşlarını məcburi surətdə ölümə göndərir. Bu əlbəttə ki, təbii bir haldır ki, Azərbaycan əsgərinin mübarizə və hərbi vətənpərvərlik ruhu ermənilərlə müqayisə olunmayacaq dərəcədədir, çünki xaqlımız bu günləri, zəfər anlarının həsrətini illərlə gözlədiyi halda ermənilər özgə torpaqlarda öz xoşbəxtliklərini qurmağa cəhd edirdilər.

Hər vasitə ilə status-kvonu öz maraqlarına uyğun şəkildə saxlayaraq tarixi, əbədi-əzəli torpaqlarımızdan öz mənfur terror siyasəti, Avropa və Qara dəniz hövzəsi ölkələrinə, həmçinin digər dövlətlərə narkotik maddələrin daşınmasının həyata keçirilməsi, Dağlıq Qarabağ ərazisindən narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, terrorçuların yetişdirilməsi üçün nəzarətsiz zona kimi istifadə edirdilər.

### *Azərbaycan xalqı hər an Ali Baş Komandanın qələbə müjdəsini səbirsizliklə gözləyir!*

***Artıq 30 gündür güclü Azərbaycan Ordusunun, rəşadətli əsgərlərimizin şücaəti nəticəsində cəbhədən sevindirici xəbərlər alırıq və bu xəbərlər Cənab Prezidentin şəxsən özünün xalqa müraciəti ilə çatdırılır. Ali Baş Komandanın hər zaman səsləndirdiyi kimi "Bizim işimiz haqq işidir. Azərbaycan Ordusu hazırda öz torpaqları uğrunda döyüşür".***

Vətən Müharibəsi Azərbaycan Ordusunun uğurları və şücayəti ilə davam edir. Hər gün cəbhədən aldığımız sevindirici xəbərlərlə, beynəlxalq KİV rəhbərlərinə verdiyi səlist və qətiyyətli müsahibələri ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev işğalçı Ermənistanı siyasi-diplomatik sferada da məğlubiyyətə uğradır.

Xalqımız tezliklə işğaldan azad olunmuş torpaqlara qovuşacaq, həsrət sona çatacaq!

Müzəffər Azərbaycan ordusunun hər bir uğurlu əməliyyatı, xalqımızın qələbə ruhlu və qətiyyətli millət kimi dünya tarixinin heç zaman unudulmayacaq səhifələrinə həkk olunmasına səbəb oldu. Şanlı ordumuz Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, bir çox kəndləri, qəsəbələri və eyni zamanda strateji yüksəklikləri işğaldan azad etməsini çox qürurverici həyəcan və sevinclə qarşıladıq. Azərbaycan xalqının həmrəylik nümayiş etdirərək, Cənab Ali Baş Komandanın ətrafında sıx birləşməsi və yalnız qələbə ümidi ilə Azərbaycan ordusuna dəstək olması həqiqətən çox həssas və qürurvericidir. Yaşlı bir azərbaycanlı nənənin nəvəsinə "Bala bircə dənə də olsa erməni tankı vurmasan geri gəlmə" deməsi, şəhid ana-atalarımızın "Vətən sağ olsun" deməsi, erməni terroru nəticəsində gecə vaxtı evləri dağıdılan mülki şəxslərin şanlı Ordumuzu "İrəli-Qələbəyə doğru" səsləmələri, körpə balalarımızın gözündəki qisas və qələbə əzmi milli kimliyimizi özümüzə xatırlatdı, güclü millət olduğumuzu, dəyərlərimizə sahiblənməyi bacaran, torpaqları və ərazi bütövlüyü uğrunda qorxmadan həlak olmağı və öldürməyi bacaran məğrur və qalib millət olduğumuzu növbəti dəfə özümüzə və bütün dünyaya sübut etdi. Hər bir evdə, hər ocaqda hər qarış torpağımızda qalib Azərbaycan bayrağımız var! Bu əzmin, ruh yüksəkliyinin, iradə və qətiyyətin qarşısında heç bir düşmən dayana bilməyəcəkdir!

**Qarabağ uğrunda mübarizə bizim haqq və ədalət savaşımızdır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"**

# Xalq həmrəy olanda, Ordu qələbə çalanda...

**Ermənistan Silahlı Qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində çoxu azyaşlı uşaq olmaqla onlarla dinc insan həlak olmuş, xəsarət alanların sayı isə yüzlərlədir . Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində nəinki evlər, məişət obyektləri, həmçinin şəhər və rayonlarımız hədəf alınaraq darmadağın edilməkdədir.**

Odur ki, dinc əhali, xüsusən qocalar, qadınlar, uşaqlar, xəstələr mərmi atəşinə tutulan ərazilərdən uzaqlaşdırılaraq nisbətən sakit zonalarda sığınacaqlara yerləşdirilib. Elə sığınacaqların biri də Bərdə rayon 588 saylı məktəbidir. Məktəb Bərdə- Yevlax yolunun üstündə





köçkünlərə salınmış qəsəbədə yerləşir.

**Həmsöhbətim məktəbin təsərrüfat işləri üzrə müdiri Azər Əliyev oldu.** Qeyd edək ki, Azər müəllim Ağdam rayon Qiyaslı kəndindəndir və 27 il əvvəl erməni terrorçuları onun yurdu Ağdamı işğal etikdən sonra Bərdə rayonuna pənah gətirib.

Ordumuzun uğurlarından, doğma yurda qayıtmaq arzusunun bu qədər yaxın olmasından sevinclə, kövrələr-kövrələ danışan Azər müəllim Prezidentimizin göstərdiyi siyasi iradəyə görə, ailəsi və yaxınları adından təşəkkürünü, məmnuniyyətini qəzetimiz vasitəsilə Ali Baş Komandana çatdırmağı xahiş elədi.

Azər müəllim 3 mərtəbəli böyük məktəb binası haqqında məlumat verərək bildirdi ki, binada 6 məktəb fəaliyyət göstərib: 12, 11, 95 saylı Ağdam, 16 saylı Şuşa, 24 saylı Laçın, 92 saylı Kəlbəcər. Müasir dünya standartlarına uyğun tikilərək istifadəyə verilmiş məktəbin 60 -a yaxın sinif otağı, əlavə akt və idman zalı, kitabxanası, bufeti var. Hazırda dəhlizlərdə daxil olmaqla bütün otaqlar da, eləcə də, kitabxana, bufet, akt və idman zallarında 166 ailə, o cümlədən, 680 nəfər məcburi köçkün yerləşdirilib.

Sığınacaqdakılara Bərdə rayon İcra hakimiyyəti tərəfindən 50 çarpayı, isti yorğan (odeyal), spirt, maye sabun və digər gigiyenik ləvazimatlar verilib.

FHN balansından hər gün: səhər, günorta, axşam yeməkləri ilə , eləcə də su, çörək, kələm turşusu və meyvələrlə təmin olunurlar. Həftə ərzində 18, 55 yeşik alma, 18 yeşik isə üzüm sığınacaqdakılara Bərdə Rayon İcra Hakimiyyətindən sovqat olaraq göndərilir.

Ağdam Rayon İcra Hakimiyyəti də buradakı əhalini unutmayıb. Məktəbə 40 ədəd çarpayı isə onlardan gəlib.

Beynəlxalq Qırmızı Xaç cəmiyyəti ailə başına 90 manat müavinətin paylanmasını da başa çatdırıb.

**Azər Əliyev bildirdi ki, bəzən fərdi şəxslər də məktəbə yaxınlaşır, az da olsa yardımçı olmağa çalışırlar:" Yardım etmək istəyənləri ehtiyacı olan ailələrlə əlaqələndiririk, onlarda əllərində gələn köməyi edirlər. Bir sözlə, xalqın- millətin birliyi, çətin dövrdə həmrəyliyi də adamı kövrəldir, qürurlandırır. Bu səbəbdən də xalqıma hər zaman həmrəylik, orduma qələbə, Ali Baş Komandanıma isə sarsılmaz sağlamlıq arzu edirəm! Biz birlikdə güclüyük!**

**Əntiqə Rəşid**
**"Ədalət" qəzetinin**
**Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**

## *Ramzan Kadırov: «Sən terrorçudan da pissən»*



**Çeçenistanın prezidenti Fransa prezidenti Emmanuel Makronu cinayətə məcbur etmədə günahlandıraraq: " Makron Məhəmməd Peyğəmbərin karikaturalarının yayımlanmasını dəstəkləməklə müsəlmanları cinayət törətməyə məcbur edir"-deyə bəyan edib. Kadırov müsəlmanların peyğəmbərinin təhqir olunmasına yol verilməyəcəyinə söz verib: "Makron terrorçudan dəfələrlə pisdir".**

"Həmişə insanlığın yüksək dəyərindən danışırsınız, lakin öz hərəkətlərinizlə insanları cinayət törətməyə məcbur edirsiniz. Əgər adi həqiqəti dərk etmək istəmirsinizsə, onda dünya müsəlmanlarının sizə müqəddəs Məhəmməd peyğəmbərlərinin adını təhqir etmənizə izn verməyəcəklərinə hazır olun"- deyə Kadırov teleqram kanalında yazıb. Çeçenistanın rəhbəri Makronu insanların inamına hücum etməyi dayandırmağa çağırıb. O bildirib ki, "dünya liderləri dinə, mədəniyyətə, mənəviyyata hörmət etmədikcə Fransa və digər ölkələrdə layiqli gələcəyə nail ola biməyəcəklər".

"Müsəlmanların həyatında din mühüm rol oynayır. Heç kimin haqqı yoxdur ki, onu gülüş mənbəyinə çevirsin. Müsəlmanlar bu yanaşmanı heç vaxt bağışlamazlar. Makron, hələ ki gec deyil, təxribatlarını və İslam dininə qarşı hücumlarını yığışdır. Yoxsa tarixə sərsəm qərarlar qəbul edən prezident kimi düşəcəksən "- deyə Kadırov yazıb.

**Fransa prezidentinin İslam dininə qarşı qıxışları Yaxın Şərqin bir çox ölkələrində etirazla qarşılanıb. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Makrona psixi durumunu yoxlatdırmağı məsləhət görüb. Banqladeşin paytaxtında Məhəmməd peyğəmbərin təhqir edilməsinə etiraz edən 40 minə yaxın insan Fransa səfirliyinin qarşısında Makronun şəkillərini yandırıb. Pakistan Fransanın bu ölkədəki səfirini XİN-ə çağıraraq ona etirazlarını bildirib.**

**Rüstəm Hacıyev**

## *Tramp: Rusiya və Çin bizə həsəd aparır*




**Rusiya və Çin ABŞ-ın hərbi gücünə həsəd aparır. Bu sözləri ABŞ Prezidenti Donald Tramp Viskonsində seçiciləri qarşısında çıxış edərkən deyib.**

**"Dünyanın ən yaxşı silahlı qüvvələri bizdədir. Rusiya və Çin bizə həsəd aparır. Heç kim düşünmürdü ki, biz bunlara qadirik, lakin bütün bunlar ABŞ-da hazırlanıb. Nüvə silahlarımız çox yaxşı vəziyyətdədir. Sadəcə ümid edirəm ki, biz nüvə silahından heç vaxt istifadə etməyəcəyik", - deyə Ağ Ev rəhbəri bildirib.**

**MEHRİBAN**



ARZU QAZİYEVA

## ƏSGƏRƏ MƏKTUB

*Əsgərə məktub yazmışam. Bilmirəm, əsgərinmi əlinə keçəcək, ya zabitin. Mənimçün fərq etməz, təki məktub 5 dəqiqəlik fasilədə onu oxuyanın yorğunluğunu çıxarsın, anlatsın ki, hamının düşüncəsində, ürəyindədir. Bunu anlayandan fərəhlənsin, növbəti qələbələrə çatsın.*

*"Sabahın xeyir, ƏSGƏR!*

*Səsini eşitməsəm də əminəm ki, sağ və salamatsan, düşmənin başını əzirsən.*

*Biz də sağ və salamatıq. Hər şey qoyub getdiyin kimidir. Televizorun qarşısından çəkilmirik. Eşitmək istədiyimiz tək qələbə xəbərləridir. Şükür olsun bizi yaradana ki, eşitmək istədiyimizi bizə qismət edir.*

*Atan səhhətindən daha şikayətlənmir. Deyir ki, özünü yaxşı hiss edir. Arada gözləri dolur. O da Sənin kimi oğulun atası olduğu üçün.*

*Ananın dodaqları yalnız bir cümlə pıçıldayır: Allah Səni qorusun!*

*Balaca bacın da yaxşıdır. Dilindən "qaqaşım" sözü düşmür.*

*Qardaşın daha bizi incitmir. Özünü yekə kişi kimi aparır. İdmana yazılıb, deyir ki, Sənin kimi güclü olub düşmənlə döyüşmək istəyir.*

*Məktəbdə sinif rəhbərin Yasəmən müəllimənі xatırlayırsan? O gün yolda rastlaşmışdıq. Səninlə fəxr etdiyini söylədi. Dedi ki, Sən hələ məktəbdə o biri uşaqlardan həmişə fərqlənirdin.*

*Dünən qonşunun qızı Lalə qarşıma çıxmışdı. Məni görcək yanaqları allandı. Səni dili ilə soruşmağa utandı, gözləri ilə soruşdu. Biləndə ki, qəhrəmanlıqlar edirsən, üzü işıqlandı. Çöhrəsi deyirdi ki, Səni gözləyəcək.*

*Bu arada məhləmizin uşaqları çığır-bağır salmışdılar. Sən demə, "müharibə" oyunu oynamaq istəyirmişlər, amma düşmən olmağa heç kim razılaşmayıb, hamı Sən olmaq istəyirmiş. Bu gün qonşular yenə də Səndən danışırdılar. İndi hamı Səndən danışır. Bilirsən, Səninlə necə qürur duyuram? Sən Azərbaycanın başını ucaltdın. Sənə canımız-gözümüz qurban.*

*Bu qədər. Özündən muğayat ol, özünü qoru ki, düşmənin başını əzib qələbə ilə qayıdasan. Səni öpürəm, qucaqlayıb bağrıma basıram. Səni səbirsizliklə gözləyirəm!*



Eminquey

## Ömür boyu sizə borcluyuq!

**Bu müqəddəs döyüşdə şəhid olanlar, yaralananlar, ayağını, əlini itirənlərlə yanaşı, eşitmə, danışma qabiliyyətini itirib kantuziya alan əsgərlərimiz də var.**

**Müqayisə düzgün olmaz, amma insan əllərinin, ayaqlarının yoxluğuna da dözə bilər, bədənində illərlə qəlpə ilə də yaşaya bilər, amma ən vacib iki duyğudan məhrum olmaq ağırdır.**

**Bir də onları təsəvvür edin.**

**”Şuşa” deyib qışqıra-qışqıra sevincini çıxara bilmirsən.**

**Doğmalarının necə sevindiyini, nələr dediyini eşidə bilmirsən.**

**Amma sən bu tutulan qulağınla, dilində illərdir ”dənizdən dənizə böyük ermənistan” xülyasını darmadağın eləmisən.**

**İllərdir ”böyük kölgə” kimi başının üstündə dayananları məyus eləmisən.**

**Xocalıda qolları, əlləri kökündən qoparılan, amansız işgəncələr görən insanlarımızın qisasını almısan. Xocalı qətliamını törədənləri bir-bir gəbərtmisən.**

**Sən Azərbaycan xalqına, onun prezidentinə beynəlxalq nüfuzu, başıdikliyi qaytarmısan.**

**Sən tutulan dilinlə ”Qarabağ əldən gedib, qayıtmayacaq” deyən dilləri lal eləmisən, Əsgər!**

**Sən tutulan qulaqlarınla böyük bir xalqa ”Sona bülbüllər”i Qarabağda eşitməyi qismət eləmisən, Əsgər!**

**Sən Azərbaycanı Günəş kimi doğdurdun!**

**Sən bu ölkənin qibləsini xilas eləmisən! Məhəmməd Məkkəni xilas edən kimi.**

**Sən Qarabağı çarmıxa çəkib qarğa-quzğuna yem edənlərin özlərini çarmıxa çəkmisən, Əsgər!**

**Sən Allahın Surunu çalan İsrafilsən! İmtahana çəkdin düşməni. Ədaləti bərqərar elədin!**

**Sən illərdir Qarabağdan özünə ”Ağlama divarı” düzəltmiş böyük bir xalqın gözlərinin yaşını silib gülüş bəxş eləmisən, Əsgər!**

**Sən dünyaya sübut elədin ki, sülh göyərçinləri güllləbaran olunanda əsgər özü çevrilib sülh göyərçini ola bilir.**

**Sən təkcə Qarabağı yox, həm də Azərbaycanı bizə qaytarmısan, Əsgər!**

**Ömür boyu sizə borcluyuq!**

## *Mixaylovdan İrəvana: Bu, əclaflıqdır!*



**Şübhə yoxdur ki, Paşinyan rejimi tamamilə nasist rejiminə çevrilib. Yoxsa dinc əhaliyə zərbələri necə izah etmək olar?**

Bu barədə rusiyalı jurnalist, beynəlxalq münaqişələr üzrə ekspert Yevgeni Mixaylov video-müraciətində bildirib.

"Bu əclaflıqdır. Cəbhədə qalib gələ bilmirsən deyə, dinc əhalini öldürməlisən?!" - deyə Mixaylov Ermənistana müraciət edib.

Onun sözlərinə görə, bunu yalnız cinayətkar rejim edə bilərdi: "Əgər savaşırsansa, döyüş meydanında mübarizə apar, ya qalib gəl və ya da təslim ol. Bütün dövrlərdə belə hesab edilib. Amma bu, indiki Ermənistan ordusuna aid deyildir.

Hesab edirəm ki, Azərbaycan sadəcə öz işini görərək, torpaqlarını geri almalı və hərbi cinayətkarları cəzalandırmalıdır. Dünya birliyi susur, amma bu, o demək deyil ki, heç bir reaksiya olmayacaq. Reaksiya rəsmi Bakının cinayətkarları məhkəməyə təqdim etdiyi zaman olacaq. Gec olsun, amma hər kəsin gözü açılsın!"

**MEHRİBAN**

# YOLLAR BİZİ AYDINLIĞA QOVUŞDURUR

**Hər hansı bir yurd yerinə - şəhərə, kəndə, qəsəbəyə yolun düşəndə ilk tanışlıq elə bu yollardan başlayır. Elə ki, yollar rahat olur, bir problem yaranmır, mənzil başına çox rahatlıqla çatırsan və özünü normal hiss eləyirsən. Vay o günə ki, getdiyin yol bərbad ola, çala-çuxura düşəsən, bax onda lazımi ünvana çatanda elə bil ki, daş daşımısan, yorulub əldən düşmüsən. Əlbəttə, yolların rahat, hamar və yaxşı olması elə insanların həyat tərzinin normal olması deməkdir.**

Bu gün biz iftixarla deyə bilərik ki, Azərbaycanda yol infrastrukturu digər sahələrlə müqayisədə daha yüksək səviyyədə inkişaf edib, tikilib və əhalinin istifadəsinə verilib. Onu da deyə bilərik ki, indiki zamanda ölkəmizdə respublika əhəmiyyətli elə bir avtomobil yolu yoxdur ki, o yol dünya standartları səviyyəsində tikilməsin və istismara verilməsin. Hansı ki, 20-30 il bundan əvvəl ölkəmizdə yolların hansı vəziyyətdə olması çoxlarının yadından çıxmayıb. Deməli, bu gün ölkəmizə, hətta xarici vətəndaşlar gələndə belə, üzümüz onların qarşısında ağdır. Çünki Azərbaycanın yolları bu gün heç bir Avropa ölkəsinin yollarından geri qalmır. Başqa sözlə demiş olsaq, respublika əhəmiyyətli hər hansı avtomobil yolu ilə mənzilbaşına nəqliyyat vasitəsilə heç bir çətinlik yaşamadan çatmaq mümkün olur.

Nəinki respublika əhəmiyyətli yollar, hətta ölkəmizin bütün bölgələrində, şəhərlərində, qəsəbələrində, kəndlərində yol infrastrukturu əsaslı surətdə yenidən tikilərək istismara verilib. Və bu vəzifəni də ölkəmizdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi yerinə yetirir.

***Əlbəttə, yol çəkmək, özü də müasir tələblərə uyğun avtomobil yolları inşa etmək o qədər də asan məsələ deyil. Ən azından bunun üçün müasir texnika və texnologiyadan istifadə edilməli, çəkilən yolların istismar müddətinin çox olması üçün bütün zəruri addımlar atılmalıdır. Bu mənada Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin üzərinə çox böyük məsuliyyət düşür. Çünki hər hansı yeni tikilmiş yol ilk növbədə dünya standartlarına və texniki tələblərə cavab verməlidir. Və onu da qeyd edək ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədovdur. Hər hansı işin mütəxəssisi, bilicisi və təcrübəsi olanda o iş də öz müsbət nəticəsini verir. Yəni xalq dili ilə demiş olsaq, çörəyi ver çörəkçiyə, birini də üstəlik. Təbii ki, işi işbilənə tapşıranda, o da istər-istəməz öz işinin öhdəsindən bacarıqla gəlir və tapşırılan vəzifəni məsuliyyətlə yerinə yetirir.***



Ölkə prezidenti cənab İlham Əliyev dəfələrlə çıxışlarında qeyd edib ki, biz işğaldan azad olunmuş rayonlarımızda, şəhərlərimizdə, qəsəbələrimizdə və kəndlərimizdə çox möhtəşəm tikinti, quruculuq, abadlıq işləri görəcəyik. Bütün infrastrukturlar dünya standartlarına uyğun inşa ediləcək. O yerlərə, o rayonlara yeni yollar çəkiləcək. Artıq o gün gəlib. Bu gün deyə bilərik ki, Böyük Qarabağ Savaşında arxa cəbhə də bu vətən, bu dövlət üçün öz üzərinə düşən missiyanı məsuliyyətlə yerinə yetirməlidir.

Yəni əsgər cəbhədə döyüşürsə, arxa cəbhədə çörəkçi öz işini görməli, yol çəkən öz üzərinə düşən vəzifəni icra etməli, müəllim savadlı şagird yetişdirməli və digər peşə sahibləri də tapşırılan işi namusla, vicdanla icra etməlidir. Bax, belə olarsa, biz Böyük Qarabağ Savaşında qələbəmizi tezliklə təmin edərək bayrağımızı işğaldan azad olunmuş bütün rayonlarımıza sancarıq.

Bu mənada Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Böyük Qarabağ Savaşında tapşırılan vəzifəni məsuliyyətlə yerinə yetirir. Belə ki, Tərtər rayonunun işğaldan azad olunmuş Talış və Suqovuşan yaşayış məntəqələrinə yeni yol çəkilməsinə başlanılıb. Bu o deməkdir ki, qüdrətli Azərbaycan dövləti ön cəbhədə müharibəni uğurla davam etdirməklə yanaşı, arxa cəbhədə də öz vəzifəsini şərəflə yerinə yetirir. İşğaldan azad olunmuş həmin kəndlərdə bu gün çox yüksək səviyyədə yol tikintisi həyata keçirilir. Eyni zamanda, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin hər bir əməkdaşı cənab prezidentin bu qurum qarşısında qoyduğu bütün vəzifələrin məsuliyyətini dərindən dərk edir.



Əgər işğaldan azad olunmuş Talış və Suqovuşan kəndlərinə yeni yolun tikintisinə və çəkilişinə başlanılıbsa, deməli, bizim qüdrətli dövlətimiz bu layihələri digər işğaldan azad olunmuş rayonlarımızda, şəhərlərimizdə, qəsəbələrimizdə, kəndlərimizdə həyata keçirəcək.

***Və bir gün gələcək Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi işğaldan azad olunmuş Füzulidə, Cəbrayılda, Hadrutda, Zəngilanda, Qubadlıda və eləcə də erməni yağılarından xilas ediləcək Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada dünya standartlarına uyğun avtomobil yolları inşa edəcək.***

Bununla yanaşı, məlum qurum rayondaxili, şəhərdaxili, qəsəbədaxili və kənd yollarının da təbii ki, inşa edilməsini nəzərdə tutub. Təki torpaqlarımız, yaşayış yerlərimiz azad edilsin, orda nəinki yol infrastrukturu, bütün infrastrukturlar qurulsun, müasir yaşayış binaları, sosial obyektlər, kommunikasiya sistemləri tikilsin və əhali də öz yurd-yuvasına, ocağına dönsün. Yazımızın əvvəlində, daha doğrusu, sərlövhəsində qeyd etdik ki, yollar bizi aydınlığa qovuşdurur. Çünki hər hansı yurda, ocağa getmək üçün öncə yol çəkilməlidir. Bu yol çəkiləndən sonra insanlar 27 il erməni işğalı altında olmuş Vətənlərinə çox rahatlıqla və çox sevinclə qayıdacaqlar. Bu sevinci torpaqlarımızı işğaldan azad edən Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev və Azərbaycan Ordusu bu xalqa bəxş edib.

Və bir milyona yaxın yurdundan, yuvasından 27 ildir ayrı düşmüş və məcburi köçkünlük həyatı yaşayan insanlar öz el-obasına çox böyük həvəslə dönəcəklər.

**Və dönəndə də bir Allaha şükür edəcəklər, bir də Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna! Yollar yeni tikiləndən sonra isə işğaldan azad olunmuş yaşayış məntəqələrinə insanlar daha asanlıqla gedəcəklər. Yolunuz işıqlı, mənziliniz rahat və həyatınız gözəl olsun, yurd yerinə dönənlər! Allah-Təala sizə bir daha o kədərli anları yenidən yaşatmasın. ”Pir” deyib öz yurdunuzdan yapışasınız. Bu yurdda, bu eldə əkəsiniz, biçəsiniz və xoşbəxt ömür yaşayasınız...**

**Faiq QİSMƏTOĞLU**

# Başı kəsilmiş ilanın zəhəri bizi qorxutmur! – Bərdədən REPORTAJ...

**Qarabağ bölgəsində baş verən yenilikləri diqqətinizə çatdırmamışdan əvvəl dünya təcrübəsində dəfələrlə görülmüş bir hadisəni sizə xatırlatmağı lazım bildim.**




Deməli, ötən il, ABŞ-ın Texas əyalətində yaşayan Cenifer Sutklif adlı qadının həyat yoldaşı bağçada təmizlik işləri aparan zaman ilan görür ilanı zərərləşdirmək üçün başını kəsir. 1.25 metrlik uzunluqda olan ilan isə başı kəsilsə də ölmür. Kişi isə ilanı öldüyünü düşünür və onun başını bağçadan yığışdırmaq istəyən zaman başı kəsilən ilan onu dişləyir. Kişiyə ilan zəhəri keçir. Cenifer həyat yoldaşına ilk təcili yardım göstərsə də vəziyyəti get-gedə ağırlaşır. Bundan sonra onu helikopter ilə xəstəxanaya çatdırırlar. Bir neçə gün tibbi yardım göstəriləndən sonra Corpusun vəziyyəti düzəlir, amma böyrəklərində hələ də problem olduğu deyir. Bunun zəhərin təsirindən olduğu deyilir. Arizona Universitetinin alimi Lesli Bayer açıqlamasında deyib ki, ilanları başını kəsmək ilə öldürmək olmaz. İlanlar başı kəsiləndən 2 saat sonra ölürlər.



### *1 aydan artıqdır ki,*

***Müzəffər ordumuz cənnət Qararabağımızın dağına-daşına, çölünə- düzünə sarılmış, orada yuva qurmuş ilanların terrorçu ermənilərin başını əzdikcə , başı kəsilmiş, məğlub edilmiş, 30 illik uydurmaçı ”güc-qüdrət”i yerlə yeksan olmuş ermənilər Texas ştatındakı həmin ilana dönüblər. Kəsik başları ilə qarşılarına keçəni qapır, onlarıa doğuluşdan canlarında gəzdirdikləri zəhəri axıtmaqda davam edirlər.***

Bildiyiniz kimi, işğal altındakı torpaqlarımızın azad olması uğrunda Azərbaycan ordusunun əks hücum əməliyyatları başlayandan Ermənistan silahlı qüvvələrinin dinc Gəncə şəhərini ballistik raketlərlə atəşə tutur.

4, 11 və 17 oktyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Gəncənin raket və artilleriya atəşinə tutması nəticəsində 26 nəfər həlak olub, 138 nəfər yaralanıb. Dünyanın, beynəlxalq aləmin dinc əhalini qəsdən vurmasını seyr etməsi erməni ilanlarını yenidən cuşə gətirdi. Beləki, humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutdu.

Ermənistanın Bərdə rayonuna etdiyi nəhəng raket hücumu nəticəsində 4 mülki şəxs həlak oldu və 10 nəfər uşaq və qadın ağır yaralandı.

### *Bu hadisə*

yenə də başı kəsilmiş ilan əhvalatını xatırladır. Bəli, mülki insanlara qarşı istifadəsi qadağan olan kasetli raketlər insan itkisinin çox olmasını labüdləşdirir.

***Təbii ki, Azərbaycan xalqı bu duruma öz etirazını bildirir. Ağdam rayonu Sarıcalı kəndindən olan 45 ilin müəllimi Paşa mövzuya təmkinlə başlasa da emosiyalarınıa hakim ola bilmədi. O bildirdi ki, ”kişilik” anlamının nə olduğunu bilməyən bir topluma, ”kişi də uşağa, qadına, qocaya əl qaldırarmı?” demək, sanki bir itə kitab oxutmaq qədər absurd bir hərəkətdir: ” O vaxt əfsanəvi qəhrəman Şamil Basayev maraqlı bir fikir işlətmişdi. Demişdi ki, qafqazlılarda namus, Qeyrət, Kişilik kimi müqəddəs anlayışlar var, amma ermənilərdə yoxdu. Yəni ki, ermənilərin əsli- kökü olmadığına, qafqazlı olmadığına görə o müqəddəs anlamları bilməzlər. Mənşəyi məlum olmayan bu məxluqlar onsuzda əllərindən gələn pisliyi iki yüz ildi xalqımıza edirlər.***

***Nəinki tək azərbaycanlılar, hətta Xocalı soyqırımını gözləri ilə görmüş dünya xalqları da ermənilərin dinc əhalini atəşə tutmasına təəccüblənməməlidirlər!***



Biz də təəccüblənmirik! Qorxmuruq! İnadımız da inaddır! Ali Baş Komandanımızın dediyi kimi Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Paşa müəllimin həyat yoldaşı Səmayə xanım da Sarıcalı kənd məktəbində uzun illər müəllimə işləyib. Söyləyir ki, hələ aprel döyüşləri zamanı təmas xəttinin cəmi 300 metrliyində yerləşən evinə mərmi düşmüşdü:

”Evimizin üstü tamamilə, pəncərə və qapıları qismən dağılmışdı.

Müharibə bitəndən sonra dövlətimizin köməkliyi sayəsində evimiz yenidən təmir olundu və 27 sentyabra qədər biz orada rahat yaşamışıq.

### *Hazırda kəndimiz də,*

Çəmənli, Əhmədağalı, Mahrızlı, Zəngişalı, Qaradağlı, Çıraqlı hər gün mərmi atəşlərinə məruz qalır. Evlər , təsərrüfatlar, obyektlər dağılır. Hamısı əsgərlərimizin bir telinə qurban olsun! Mənim canımda səngərdə döyüşən igidlərimizə qurban! Vallah, o evlərdən də. Obyektlərdən də. O təsərrüfatlardan da yaxşısını müharibədən sonra yaradacağıq, quracağıq.

Amma əsas münasibəti Azərbaycan ordusu cəbhədə sərgiləyir.

Dünəndən bu günə qədər cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd ”Osa” ZRK, 3 ədəd BM-21 ”Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 ”Qiasint-B” topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd ”Konkurs” tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

**Erməni yenə öz əməlindən əl çəkmir. Bərdə şəhərinə ağır artilleriyadan mərmi atəşlərinə məruz qalıb. Amma bu atəşlər, bu mərmilər heç kimsəni qorxutmur! Qorxutmayacaq da! Qarabağ Azərbaycandır!**

**Əntiqə Rəşid**
**”Ədalət” qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**

# Vur əsgərim, vur!



**İllərlə qaysaqlamayan yaramızın özəyini qopartdılar. Duz tökdülər yaramıza. Yandırıb yandırsın, yanaq deyə... Biz bu dünyada çox zalımlara, qəddarlara tuş gəldik. Ləkələdilər, əydilər bizi. Amma çökdürüb, sındıra bilmədilər Vətənimizi. Vətən torpağı qürbətdə qalsa da, ürəyimizi qubar alsa da əyilmədik, sınmadıq:**

*Torpaq diləkçiləri*
*Oğurladılar Vətənimizi.*
*Vətənsizqoydular bizi...*

Ayağa durduq, baş qaldırdıq. Dünyaya bir daha kimliyimizi sübut etdik. Bizim qəhrəman, döyüşkən, güclü və nikbin olduğumuzu bütün dünya gördü. Biz mərd, dözümlü xalqıq. Çox şeylərə dözərik. Ancaq düşmən bilsin ki, torpaqdan pay verməik. Vətən uğrunda ölərik, Ana dediyimiz doğma torpağın bir qarışından da keçmərik. Eşidib Ali Baş Komandanın haqq, ədalət səsini, duyub torpağımızın iliq nəfəsini, Azərbaycan əsgəri uçurdub dağıtdı səngəri. Əsgərlərimiz aslan olub, pələngləşdi. Qarı düşmənin işi əngəlləşdi.

Ucadan eşitdi Koroğlunun dəli nərəsini. Atıldı müqəddəs savaşa. Babəkin kəsilmiş qollarının qanına boyanan torpaq uğrunda qisas vuruşuna qalxdı yenilməz Azərbaycan oğulları.

**İrəli gedir, gündə bir qələbə əldə edir, bu gün əsgər oğullarımız. Çin olur qəflət yuxularımız... Vur düşməni, qov doğma torpaqdan əsgər qardaşım. Bu gün təkcə sənsən mənim ümid yerim, sirdaşım. Vur, vuran qoluna qurban. Keçdiyin qanlı döyüş yoluna qurban. Vur, qoy azad nəfəs alsın Vətənimiz. Xoş rifahla yaşasın obamız, elimiz. Vur, eşitsin uzaqlar, hamı bilsin ki, bizim xalqla iqtidar bir candır. Qarabağ Azərbaycandır!**

**Adil Misirli,**
**Ağcabədi**

# QARABAĞ AZƏRBAYCANDIR!

**Erməni separatçılarının Azərbaycana qarşı etnik təmizləmə, soyqırım və dövlət terrorizmi siyasəti 30 ildən artıqdır ki dünyanın gözü qarşısında davam edir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi əks olunmuşdur. BMT-nin Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal və qeyri şərtsiz çıxması tələb olunsa da, Ermənistanın açıq aşkar işğalı mövqeyi tutması nəticəsində bu qətnamələr indiyədək yerinə yetirilməyib. Bununla yanaşı, faşist idealogiyasına əsaslanan təcavüzkar siyasət, eləcə də münaqişənin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən fikirlər tarixi reallığı, münaqişənin əsil mahiyyətini əks etdirmir. Məqsəd vaxt uzatmaqla işğalçılıq siyasətini davam etdirməkdir.**

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub.Azərbaycan ordusu bu hərbi təcavüzə cavab olaraq Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmənin layiqli cavabını verir və xalqımız bütünlüklə Ali Baş Komandanın ətrafında bir yumruq kimi səfərbər olmuşdur. Azərbaycan ərazilərinin azad olunması uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmənə sarsıdıcı zərbələri, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri, eləcə də bir sıra yaşayış məntəqələrimizin işğalçılardan azad edilməsi, həmçinin müxtəlif istiqamətlərdə stateji yüksəkliklərin ələ keçirilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratmışdır. Ancaq beynəlxalq ictimai-siyasi arenada biz nəyin şahidi oluruq? Son 28 gün ərzində təcəvüzkara qarşı heç bir təzyiq nəinki yoxdur, dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinə, bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşır, onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853,874,884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etmir.

***Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatlarını davam etdirilir. 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Cəbrayıl rayonunun ərazisində yerləşən Xudafərin körpüsünün üzərində 27 il sonra Azərbaycan bayrağı ucaldıldı. Beləliklə, parlaq qələbələrə imza atan Azərbaycan Ordusu bu dəyərli abidəni özümüzə, əsl sahibinə qaytardı və 2020-ci ilin oktyabrın 18-i tariximizə daha bir şanlı gün kimi yazdı.***

2016-cı ildə Azərbaycanla İran arasında imzalanmış və gələcəyə hesablanmış Saziş Azərbaycan Prezidenti cənab İlham Əliyevin prinsipial dövlət başçısı və uzaqgörən siyasi xadim olduğunu bir daha göstərdi. Saziş təcavüzkar Ermənistanın Araz çayı üzərindəki qanunsuz fəaliyyətinin qarşısını aldı.

Sənədə bu günün reallığından, yəni Azərbaycan ərazilərinin işğaldan azad olunması konteksindən yanaşdıqda isə, aydın görmək olur ki, prezident cənab İlham Əliyev bu starteji addımı ilə həm də qarşıdan gələn dövrdə həmin bölgənin sosial-iqtisadi inkişafına böyük təkan verəcək mühüm bir layihə reallaşdırdı.

Azərtbaycan əks-hücum əməliyyatı həyata keçirərək işğal altında olan ərazilərini bir birinin ardınca azad edir. Hərbi baxımdan, məğlub olduğunu dərk edən Ermənistan və havadarları isə, beynəlxalq hüquqdan, insan haqlarından, sülh danışıqlarının mühümlüyündən dəm vurmağa başlayıblar. Onu da qeyd etmək lazımdır ki, münaqişə ilə bağlı vasitəçilik edən dövlətin mövqeyi birmənalı şəkildə bəllidir. Xüsusilə, tərəfsiz vasitəçilik edən dövlətlərin mövqeyi birmənalı şəkildə bəllidir.

***Xüsusilə, tərəfsiz vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun ənənəvi və mücərrəd bəyanatları elə status-kvonu qoruyub saxlamağa çalışan Ermənistanı hər dəfə bir az daha da şirnikləndirir. Azərbaycan prezidenti bəyan edib ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və işğalçı mahiyyəti dəyişməz olaraq qalır, bunu hər kəs və bütün dünya bilməlidir. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan dövləti ATƏT-in Minsk qrupundan təcavüzkarla təcavüzə məruz qalanın adını çəkməyi, o cümlədən daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyir.***

Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətlə, eyni zamanda beynəlxalq hüquqa əsaslanırıq." Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Möhtərəm Prezident demişdir: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə,-necə ki Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib,-biz özümüz onları məsuliyyətə cəlb edəciyik. Biz özümüz onların cəzasını verəciyik, özümüz onları cəzalandıracağıq. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkardır və biz bu cinayətkarları cəzalandıracağıq."

**Bu baxımdan, dövlətimizin BMT-nin Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub, öz ərazilərini azad etmək hüququ var və bu hüquqdan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirir və BMT Təhlükəsizlik Şurasının 27 il yerinə yetirilməmiş qalan qətnamələrini özü icra edir. Dövlətimizin başçısı birmənalı olaraq bildirib ki Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!**

**Aytəkin Qasımova**
**1 saylı Bakı "ASAN xidmət" mərkəzində notariat ofisinin notariusu**

# GÜNAHIMIZ NƏDİR?

## FİNAL MƏRHƏLƏSİ ÖNDƏDİR



*Maşallah Məftun,*
*hərbi ekspert*

**Bəli, bu gün Azərbaycan əsgəri tarix yazır. Tarixin dərslərini tarixi yaradanlar yazır. O dərsləri ki, əsrlər, qərinələr ötəcək tarixdə izi silinməyən qəhrəmanlar və onların verdiyi dərslər qalacaq. Ali fikirlər qalacaq, kimlərinsə qolundan tutacaq, kimlərəsə yol göstərəcək, kimlərinsə dizlərini bükəcək. Tarixi qəhrəmanlar yaradır, əyər o ana döşündən təmiz süd əmibsə, qanı təmizdirsə, türklüyü yerindədirsə qorxusu yoxdur. Beləsinin, Vətən-torpaq sevgisi ürəyində, gücü biləyində, eşqi gərəyində, Tanrı köməyində olacaq.**

Bu gün ordumuz döyüşür, nöqtə atışıyla yerdən vurur, göydən vurur, düşmən qaçaqaçdadır. Kim göylərə hakimdirsə, yerlərə də hakimdir. Biz kosmos ailəsinin üzvüyük. Pilotsuz aviasiyamız düşmənin atəş ocağlarını göyə sovurur. Ermənilər tanklarını, toplarını bütünlüklə hərbi texnikalarını, hərbi sursatlarını döyüş meydanında ataraq canını qurtarmağa siçan deşiyi axtarırlar. İrəvana tərəf qaçırlar ki, bəlkə canlarını qurtarıb sağ qaldılar.

Bu gün sivlizasiya baxımından Ermənistan təklənib. Üstümüzə qarğa-quzğun kimi tökülüşən güc mərkəzləri yavaş-yavaş kimin kim olduğunu, haqqın kimin tərəfində olduğunu anlamağa başlayıblar. Yeni dünya reallıqları formalaşır. Rəcəb Tayib Ərdoğan demiş:-Axı dünya beşdən böyükdür. Bu baxımdan elə bilirəm İkinci Dünya Müharibəsi ərəfəsində yaranmış BMT-də öz işini yenidən qurmalıdır, əyər onun verdiyi qərarlar, qətnamələr yerinə yetirilmirsə deməli köklü dəyişikliklər etməyə dəyər.

Bizim günahımız nədir?! -Bəlkə türk olmağımızdır...

### Dünya görür ki,

*ermənilər terroristdirlər, yalançıdırlar, kirli siyasət yürüdürlər. Əsrlərdi dünyanın müxtəlif ölkələrində yalan, riyakarlıqlarla şəbəkələr qurublar türkü hörmətdən salmaq üçün. Fransa Minsk qrupunun həmsədridir. Hələ bu az imiş kimi Ermənistana silah satır, muzdlular göndərir. Bu necə ola bilər. Neytral mövqe tutmaq əvəzinə işğalçının tərəfində yer almaq mümkünsüz görünməlidir. Biz bilirik Fransada Azərbaycanın Dağlıq Qarabağ -adlı ərazisini bəzi yaşlı ermənilərdən başqa heç tanıyan yoxdur. Buna bazmayaraq bu ölkədə "Mən müsəlmanam", "Mən Qarabağlıyam" deyənin gərək yeddi başı olsun. Burada beynəlxalq hüquq beşqatına pozulur. Erməni vəhşiliyi hər addımbaşı özünü göstərir. Onların istər yerli xüsusən jurnalistlərə, düz danışan senator üzvlərinə qarşı təzyiq və terror vasitələri çox güclüdür. 1970-75-ci illərdə böyük dövlətlərin, başqa illərdə olduğu kimi diplomatlarına necə tuzaq qurmaları çoxlarının yadındadır. Bunlara qarşı nə üçün tədbir görülmür- bu sual altında qalmaqdadır. Görünür risklər böyükdür.*

Terrorçu dövlətə etibarlı tərəfdaş ola bilməz. Eləcə də dünyanın siyasi elitası da artıq görür ki, erməni kimdir, Paşinyan kimdir. O, siyasətdə, diplomatiyada ösfəaliyyət səviyyəsində olan bir təcrübəsiz gəncdir. Görünən kəndə bələdçilik lazım deyil. Nikol Paşinyan başda olmaqla Ermənistan bütün cəhətdən meydanlarda, daxili və xarici siyasətində xırda nərd oyununda daşların sayını bilməyən xam oyunçu kimi uduzur. Müharibənin çox yox 25 gününün nəticələrini təhlil etsək Ermənistanın faciəsini açıq-aydın görərik. Bu etnosun ordusu bu müddət ərzində minlərlə hərbçisini, (müxtəlif mənbələrə görə 7mindən artıq ölü, 10 mindən çox yaralı) itirib.

### Döyüş meydanında

*vurulan tankların, artileriya qurğularının, zenit-raket komplekslərinin, topların, hərbi təyinatlı başqa nəqliyyat vasitələrinin sayı deyilənə görə ABŞ, Rusiya, Hindistan kimi ölkələrin hərbi rəhbərliyini heyrətə salıb. Ali Baş Komandan İlham Əliyev düşmənin 1 milyard dəyəri lan texnika itirdiyini açıqlayıb. Xarici ekspertlərə görə Ermənistan ordusu malik olduğu hərbi texnikanın azı üçdə birini itirb. Bu cırtdan bir dövlət və ordu üçün böyük rəqəmdir. Döyüşlər davam edir. Əyər Rusiya bizə təzyiq göstərərsə qarşısında fikrimcə Türkiyəni görəcək. Bu da bizim son fikrimizdir.*

Nikol Paşinyan düşüb dünyanın bəzi dövlətlərinin ayaqlarına yalvarır, dilənir, kömək istəyir. Fransanın prezidenti İmmanuel Makrona yalvarır ki, -Qarabağı tanı. Nə qədər simasız olasan ki, belə yersiz xahiş edəsən. Azərbaycan torpaqlarının hesabına dövlət quran bu etnos indi gör nəyin peşindədir. İlham Əliyev demişkən "...bircə zəng etmədiyi şamanlar qaldı". Türkiyədən Daşnaksütun partiyasının bir üzvü yazmışdı ki, biz heç vaxt dövlət ola bilmərik. Ona görə biz asılılığı sevirik, müstəqil ola bilmirik. Bəzən düşünürəm:-görəsən həlli heç vaxt mümkün olmayan qələbələrə bu başıpozuqları kimlər sövq etmişdir, onları kimlər ruhlandırmışdır, yoxsa öz işlərini keçirmək üçün bunu etmişlər. Bu olmayan cığırı, izi, yolu onlara göstərənlər kimdir? Vardövlət, yığmaq başqasının torpaqlarını imkan düşdükcən ələ keçirmək bu millətin xobbisinə çevrilmişdir. Ermənipərəst qüvvələrin Ermənistana, terrorçu bir dövlətə arxa çıxacağı mifdən başqa bir şey deyildir. Bu etnos saxta rəqəmlərlə, saxta tarix yaradaraq özlərinə dövlət qurmuşlar. Bəli-Ermənistan işğalçı dövlətdir. Bütün cəhdlərinə baxmayaraq Azərbaycana qarşı güclü təzyiq formalaşdıra bilmədilər. Hətta Ermənistanın müttəfiqi Rusiyanın prezidenti Vladimir Putin döyüşlərin Azərbaycan torpağında getdiyini bir daha etiraf etməli oldu.

Bu Vətən savaşı bizə görünməzləri yaxşı göstərdi. Azərbaycanın tarixi, əzəli torpaqlarından olan Zəngəzur necə oldu Ermənistanın əlinə keçdi?! Respublukamız qardaş Türkiyə ilə böyük sərhədlərə malik olan bir dövlət olmuşdur. 19-cu əsrdə Çar Rusiyası Qafqazı ilhaq edəndən sonra yerəşdiyi məkanda özünün təhlükəsizliyini möhkəmlətmək üçün Azərbaycan türklərini sıxışdıraraq İrandan erməniləri gətirib bizim torpaqlarda məskunlaşdırdılar.-bu gələcəkdə onlara lazım olacaqdı. Onun üçün Sovet İttifaqı da 1920-ci il oktyabrın 1-də Nəriman Nərimanovun iştirakıyla qərar qəbul etdi:- "Zəngəzur Ermənistana verilsin". SSRİ dağıldıqdan sonra o zamankı Rusiya hakimiyyəti Dağlıq Qarabağın və onun ətraf rayonlarının Ermənistanın əlinə keçməsini təmin etdi. Rusiyanın şovinist, afirist rəhbərləri elə bilirdilər biz bunu görmürük. Təsir göstərən erməni lobbisi və onların havadarları, daha kimlər Türkiyə ilə alaqələrimizi məhdudlaşdırmaqdan ötrü (İranın bu işdə iştirakı danılmazdır) bu addımı atmışlar. Eybi yox Zəngəzuru qaytarmağımızı buraxırıq zamanın öhtəsinə.

İkinci dünya müharibəsində Uyiston Çörçil İngiltərədə məşhur kəlamıyla xalqa müraciət edib:-Biz öz adımızı nəyin bahasına olursa olsun qoruyacağıq. Sahil boyu aerodromlarda, meydanlarda, küçələrdə, dağlarda döyüşəcəyik. Biz heç vaxt təslim olmayacağıq.

Nikol Paşinyan (Peşmanyan) görünür başını tamam itirib, o çaşqınlıq içindədir, nə edəcəyini bilmir. İsrailin baş naziri Nitanyanın və Türkiynin Cumhur başqanı Rəcəb Tayib Ərdoğanın şəkillərini cırdırmaqla ürəyini yumşaldır. Lakin müqavimət göstərməkdən də əl çəkmir. Dinc əhalimizi Gəncəni, Tərtəri, Füzulini, intensiv atəşə tutur, dinc əhali qırılır.

*Azərbaycanın Xarici İşlər Naziri Ceyhu Bayramovun iştirakıyla Moskva görüşü barədə. Birincisi bu görüş formatı və xarakteri əvvəlki görüşlərdən fərqlidir. İkincisi ona görə bu lazımdır ki, qarşı tərəfin yalan və iftiralarını düşündüklərini onlara izah edəsən.- Sən busan, sən osan-nəhayət ki, ermənisən. Üçüncüsü atəşkəs barədə fikir söyləmək olarəyər Ermənistan tərəfi özü buna əməl edəcəksə. Onu da deməliyəm ki Cənab İlham Əliyev Ermənistan tərəfinin danışıqlara necə əməl edəcəyini yaxşı bilir. Ümumilikdə götürəndə danışıqlar diplomatik dəstək yoludur əyər fayda verərsə.*

### Minski qrupunun

üzvlərindən biri, Rusiyanın təşəbbüsüylə bu görüş baş tutmuşdur. Danışıqların nəticəsi olaraq ermənilərə "Humanitar koridor" verdik yaralılarını, meyidlərini daşısınlar. Onlar nə etdilər?- Onlar başladılar planlar qurmağa İraqdan, Suriyadan, İrandan sərnişin təyyarələrində silah daşımağa-hələ muzdluları demirik. İki dəqiqədən sonra gecə saatlarında hücuma başladılar. Bu gün də Gəncəni, Tərtəri, Mingəçeviri-dinc əhalinii qırmaqda davam edirlər. Cenevrə Konvensiyasının tələblərini pozurlar, bütün dünya ölkələri buna susur. Biz də müharibə edirik, lakin Cenevrə konvensiyasının tələblərinə riayət edirik-bu belədir.

***Görəsən onlar nə vaxta qədər kreditlə, sədəqəylə aldıqları silahlarla, hədiyələrlə, muzdlularla vuruşacağlar. Ermənistan dövləti (əyər dövlət demək mümkünsə) bu gün idarəolunmaz bir vəziyyətdədir. Belə götürəndə bu gün bizim inkişafımız, irəliləyişimiz bütün sahələrdə Moskvanı qane etmir. Regionda güc mərkəzi kimi Rusiya qalmaqdadır. Lakin bu gün Türkiyə 30 il bundan qabaqkı Türkiyə deyil. İndi 100 milyonluq güclü bir dövlətdir. Hərbi-texnoloji baxımdan dünyanın 5-ci güclü dövlətlərindən sayıla bilər. Saxta rəqəmlərlə dövlət quran Ermənistandan fərqli olaraq Rusiya başa düşür ki, Azərbaycan da 90-cı illərdəki Azərbaycan deyil.***

Əlbət ki, söz sahibi olmağın bünövrəsi döyüş meydanlarında qoyulur. Ermənistan Qarabağ savaşına özündən ötrü güclü hazırlaşmışdı, lakin müzəffər ordumuz onun bütün hazırdlıqlarını darmadağın etdi. Dərələri, qağları tunelləri əsgərlərinin cəsədləriylə doludur. Biz bilirik Nikol Paşinyan erməni əsgərlərinin və PKK, PYD, Livandan, ABŞdan, Fransadan, Rusiyadan və daha başqa yerlərdən gətirdiyi əsgərlərin və muzdluların kökünü kəsdirməsə Qarabağdan çıxan deyil. O, müharibə ritorikasından əl çəkmir. Müharibə istəyi onda güclüdür. Sən demə bu haramzada millətinin düşməniymiş.

Belə olduğu halda işğalçı düşmənə planlı şəkildə zərbələr endirilməlidir.

### Tezliklə Kəlbəcər alınmalıdır ki,

düşmənin yolları kəsilsin. Qubadlının alınması ordumuza ən vacib üstünlüklər verəcəkdir. Bunlardan birincisi bildiyim qədər Ermənistana gedən yola biz nəzarət edəcəyik. İkinci odur ki, Yazı Düzü deyilən yüksəkliyə(Bazarçay və Həkəri çayı arsında yerləşir) qalxmaqla hansı ki, yuxarısı dağlar-təpələrdi üst tərəfi əkin sahələridir. Ermənistana gedən yol oradan keçir. Biz o yüksəkliyə yiyələnəndən sonra Laçının bəzi yerləri Bərgüşad,(Bazarçay çaylarının sahilləri, ora yaxın kəndlər qalır yüksəklıydə olan hərbçilərin nəzarətində. Digər baxımdan Yazı Düzü yüksəkliyi bizdə olarsa Laçın koridorunu götürmək üçün vacibdir. Belə olan halda Gorus, Laçın, və Dağlıq Qarabağ, Şuşa, Xankəndi yollarının lap yanında olursan. Ordumuzun döyüşdə üstünlük qazanması, düşmənin minlərlə canlı qüvvəsini məhv etməsi, yüzlərlə hərbi texnikasının sıradan çıxarması bu dövlətdə daxili siyasi vəziyyəti gərginləşdirib. Get-gedə bu ölkədə böhran dərinləşir, xalq ayağa qalxır. Belə ki, bir neçə gün öncə Ermənistan Prezidenti Armen Sarkisyan təhlükəsizlik xidmətinin direktoru Argisti Karamyanı vəzifədən azad etdi. Onun yerinə müavini polkovnik Mikel Ambarsumyanı qoydu. Hökumətdə satqınçılıq baş alıb gedir, bir neçə mülki vətəndaş həbs olunub.

Fikrimcən Qafqazda istər qonşuluq münasibətlərini, dövlətçilik ,baxımından olsun bütün bunları gərginləşdirən, pozan Ermənistandır. Bu xalqın, dövlətin cinayətlərini saymaqla bitən deyil. Düşüncəmə görə ermənilər heç vaxt dövlət qura bilməzlər. Bunların çiyinlərində o qədər tarixi yalanlar, böhtanlar var ki...Ümumiyyətlə istər dövlət olsun, istər hər hansı bir fərd olsun cinayət törədibsə cəzasını almayanda ədalət də, hüquqda öz qüvvəsini itirir, ayaqlar altına düşür. Fransızların biə sözü var-Müharibədə müharibə olduğu kimi davranmaq lazımdır.

### Belə gedə bilməz

*Artıq Ermənistanı düzgün istiqamətləndirməyin vaxtıdır. Bu millət, dövlətini tarixi mif və əfsanələr üzərində -qurub desək yanılmarıq. İşğal olunan torpaqlarımız təxmini 17min kv-kilometrdir. Bu müqayisəolunmaz bir rəqəmdir. Belə ki, rəsmi Bakı ortaya maksimalist mövqey qoymalıdır:-Qarabağ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində müəyyən olmalıdır. Cənab Prezident İlham Əliyev demiş: "-Biz heç bir referenduma gedə bilmərik" o heç bizə əsla lazım deyil, gələcəkdə yenə bizə problem yaradacaq. Onlar bizim şərtimizi qəbul etməlidirlər, yəni bizim qrafiklə razılaşmalıdırlar. Qeyri-şərtsiz Azərbaycanın tarixi bölgəsi olan Qarabağdan çıxmalıdırlar. Yaxşı bilirlər onların bütün müdafiyə sistemi artıq dağılıb. 200-ən artıq tanklarını məhv etmişik, 40 yaxın tankını işlək vəziyyətdə götürmüşük, ardı daha çoxdur, məlumdur. Əsrlərinin, ölənlərinin bəlkə də onlar sayını bilmir. Paşinyan hələ bilmir ki, onu dar ağacı gözləyir. Hər xalq öz rəhbərinə, hər rəhbər öz xalqına layiqdir. Ermənilər bu işdə sox səhvə yol veriblər, onlar qarşı tərəflə yəni bizimlə hesablaşmalıdırlar, başqa cür mümkün deyil. Yoxsa həll yolu yenə də müharibədir. Müharibəni biz istəmirdik bizə müharibəni özləri-ermənilər sırıdılar. Belə olduğu halda düşünən beyinləri varsa düşünsünlər.*

Biz tariximizin ən şərəfli günlərini yaşayırıq. Biz final mərhələsinə heç vaxt bu qədər yaxın olmamışdıq. Nizami ordumuz düşmənə göz açmağa aman vermir. Dünya onu da görür ki, biz bütövlükdə şəhid olmağa hazırıq lakin Qarabağı verməyəcəyik.

Belə götürəndə Minsk qurupunun turistləri(adlarına belə deyərdim) bizə lazım deyil. Onlar E. Makron başda olmaqla özlərini ifşa ediblər. Onlar Ermənistanın dostluq qrupunun üzvləridir.

### Bütün görüşlərində

*haranınsa baza prinsiplərini axtararaq özlərinə lazım olan qaydanı bizə tətbiq etmək istəyirlər- bu nə deməkdir? Elə bilirəm Minsk qrupu Rusiya və Türkiyədən ibarət olarsa bu münasibdir. Türkiyəsiz bütün danışıqlardan imtina edilməlidir. Ona görə istər Rusiya, istər Türkiyə Azərbaycanın və Ermənistanın coğrafiyasıyla, məkanıyla, sərhədləriylə yaxın və uyğundurlar. Hərçənd ki, oktyabrın 9-da baş tutan Moskva razılaşması Azərbaycanın maraqlarına bir tərəfdən ziddir.*

Bu razılaşma Azərbaycan Ordusunun döyüş əzmini qırmaq, halal qələbəsinin qarşısını almaq, məğlubiyyəti yaxın vaxtda gözlənilən Paşinyan rejimini xilas etmək üçün Vladimir Putinin ortaya atdığı bir oyundur. Özü demiş "Böyük siyasətdə dost olmur". Qarabağ savaşı dostumuzla düşmənimizi bizə yaxşı tanıtdı. Bəli- Rusiya bizim dostumuz deyil, qonşu ölkələrdən biridir. Atəşkəs düşmənə nəfəs verməkdeməkdir. Müharibə bitməmiş əsirlərin dəyişdirilməsi düzgün deyil. Kreml çalışır ki, illərdi necə olursa olsun öz qoşunun "sülhməramlı qoşun" adıyla Qarabağa yeritsin-buna qətiyyən razı olmaq olmaz. Əyər elə olarsa nə üçün Türk ordusu kənarda qalmalıdır. Rusiya kimə nəyi qandırır?!

Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev öz adını tarixə yazdı. Sual oluna bilər necə? İlham Əliyev 200-yüz ilin müharibəsini aparır. Bu xoşbaxtlıq hər prezidentə nəsib olmayıb. Və o, tarix yazmağı bacardı. Dünyann gözü qarşısında çox riskli addım atdı. Atası Heydər Əliyevin yaratdığı, özünün möhkəmləndirdiyi Azərbaycan Ordusuyla torpaqlarımızın bir hissəsin erməni faşizmindən, işğalından azad etdi. "Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti, deyirlər olacaq. Olmayacaq. Biz torpaqlarımızı geri alacağıq. Hansı təmas xəttindən söhbət gedə bilər?! Yoxdur bu. Biz dağıtmışıq, biz etmişik. İradə göstərmişik, güc göstərmişik. Xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq".

**(ardı 6-cı səhifədə)**

# GÜNAHIMIZ NƏDİR?

## FİNAL MƏRHƏLƏSİ ÖNDƏDİR

(əvvəli 5-ci səhifədə)

**Erməni xalqında təfəkkür, uzaqgörənlik anlayışı yoxdur. Bütün tarix kitablarından oxumuşuq onlar qətillər, terrorlar törətməkdə, sərnişin metro qatarlarını, stasiyalarını partlatmaqda, çox mahirdirlər. Nikol Paşinyan (Peşmanyan) nə qədər hakimiyyətdə qalsa bizə xeyirdir-belə demək mümkünsə ona görə o, başqalarının-Sorusun məhsuludur, onların yalıyla qudurub, qudurmuş iti də nə edirlər-öldürürlər. Artıq bütün dünya onları tanımağa başlayıb, onların göz yaşlarını, yalanlarını qəbul etmirlər. Bizə elə gəlir ki, Paşinyanı da Dəmirçiyanın aqibəti gözləyir. Bir tərəfdən ona təşəkkür düşür ona görə ki, 8-10 min arası bizə leş verdi, əsgərini-döyüş meydanlarında qırdırdı, 200-dən artıq tankını, 40-a yaxın tankını işlək vəziyyətdə götürdük hələ yenə götürəcəyik, topunu qoydu qaçdı.**

Cənab Prezident ermənilərə sonuncu şansı verdi, onlar bundan faydalana bilmədilər. Bəli- Dünya gücləri Azərbaycanın haqq işiylə bağlı fikir və mülahizələrini paylaşdılar. Türkiyənin müdafiə naziri Hulusi Akar NATO Müdafiə Nazirlərinin onlayn formatında keçirilən iclasında iştirak eib. Nazir verdiyi açıqlamasında deyib: "Sülh və sabitliyin təmin olunması üçün nələrin edilmə olduğuna dair fikirlərimizi ifadə etmək fürsəti tapdıq. Bizim söylədiyimiz əsas mövzu - Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasının əsas şərtinin Ermənisraın işğal etdiyi Azərbaycan torpaqlarından çıxması və bu ərazini dərhal tərk etməsidir. Bu məqamı da danışıqlar vaxtı dilə gətirdik"- deyə Hulusi Akar bildirib. Daha sonra bildirib ki,"Haqlı mübarizəsində Azərbaycanın yanındayıq".

Ermənistanın Baş Naziri Nikol Paşinyanın xaç qardaşlarından İrəvan konyakını baş düşgünü Rusiyalı deputat Konstantin Zatulin kimi şıziklər hələ fərqində deyillər ki, müharibə işğalçı Ermənistan ordusuna qarşı Azərbaycan torpaqlarında gedir. Cənab Prezidentimiz İlham Əliyev demiş: -erməni əsgərinin bizim torpaqlarımızda nə işi var?-kəlməsini dillərinə belə gətirmək istəmirlər. Günahımız nədir?!

Rusiyanın tanınmış jurnalistlərindən içtimai xadimlərindən biri, məşhur "Nezavisimaya Qəzeti"nin sahibi və baş redaktoru Konstantin Remçukov hazırda davam edən Azərbaycanın haqq işiylə bağlı fikirlərini bölüşüb. Baş redaktor Azərbaycan prezidenti İlham Əliyevin son müşahidələrini əsas gətirərək qeyd edib ki, bu münaqişədə Azərbaycanın mövqeyi daha aydın və başa düşüləndir. "Son həftə ərzində mən gördüm ki, Azərbaycanın bu münaqişədə hədəfləri daha aydındır.Əvvəlki həftələrdə mənə elə gəlirdi ki, bu iki ölkə arasındakı periodik olaraq Dağlıq Qarabağ ətrafında baş verən növbəti gərginlikdir. Ancaq bu həftə xüsusiylə də Azərbaycan Prezidenti İlham Əliyevin televiziya çıxışları və müsahibələrindən sonra anladım ki, həmin ərazilər 30 il qanunsuz olaraq işğal altında saxlanılıb".

Daha sonra Konstantin Remçukov Türkiyənin münaqişədəki roluna tixunub. Qeyd edib ki, Ermənistan Türkiyənin Avropa Birliyi ölkələri, Yunanıstanla konfliktləri, eləcə də yaxın Şərqdə apardığı siyasətə görə tənqid olunmasından istifadə edərək, dəstək qazanmaq istəyir. O da Türkiyənin Azərbaycana hərbi dəstəyi və muzdlular göndərilməsinə dair yalanların Ermənistan tərəfindən məhz bu məqsədlə yaydığını, düşündüyünü bildirir.

"Azərbaycan hərbi qələbəyə yaxındır. Mümkündür ki, artıq bir neçə saatdan sonra Azərbaycan Ordusu Ermənistanla Dağlıq Qarabağı əlaqələndirən Cənub Laçın dəhlizini atəşdə saxlayan mövqeləri tutacaq. Şimal dəhlizi artıq bir həftə bundan qabaq bloklanıb. Orada hər şey atəş altındadır". Bunu Rusiya Siyasi Tədqiqatlar İnstitunun direktoru Sergey Markov bildirib. Onun sözlərinə görə Azərbaycan Ordusu hazırda həm də havadan da tam dominantlıq edir.

Çox fərqli tıhlillərdir. Nikol Paşinyanın xaç qardaşlarının fərqli fikirləri məhz belədir.

Azərbaycan bu illər ərzində 20mindən artıq şəhid, 10minlərlə insanlarımız yaralanmış əlil olmuşdur. İqtisadiyatımıza milyardlarla ziyan dəymişdir. Azad olunan rayonlarımıza baxanda görünür bütün rayon mərkəzləri, şəhərlər, kəndlər yerlə -yeksan olub, əclaflar viran etnışlər, daşı daş üstə qoymamışlar. Bu dəhşətdir, adı bilinməyən cinayətdir, vandalizmdir. Ermənistan bu cinayətə görə , bizə vurduğu ziyana görə ağır təzminat ödəməlidirlər. Necə ki, İkinci Dünya Mühaaribəsində Faşist Almaniyası bəşəriyyətə vurduğu ziyana görə təzminat ödəməyə məcbur edildi, Ermənistan da elə məcbur edilməlidir ödəsinlər. Bu dövlət Dünyəvi qanunlarla yaşaya bilmir. Beynəlxalq qanunları tanımaq istəmir. Dünyanın hansı ölkəsində bu etnosdan varsa bunlar terror, təxribaat rörətməklə məşğuldurlar. Ermənistan neçə yüz illərdi bir millət-iki dövləti özlərinə düşmən bilirlər, biz də eyni mövqedə olmalıyıq. Türkün türkdən başqa dostu yoxdur!

***Biz böyük millətin törəmələriyik. Bir gün Atatürkdən soruşurlar:-Ən zor olan iş nədir? O, deyir ki, Türkü hərəkətə gətirməkdir. -Daha zor olan iş nədir? O demişdir:- Türkü dayandırmaq...***

Mən zamanında qələmi silahla əvəz edib döyüşə yollandım, birinci Qarabağ müharibəsinin iştirakçısı oldum. Hazırda təqaüddəyəm.

Bu gün də lazım olaramsa çəkinmədən, qorxmadan Vətən yolunda canımı fəda etməyə hazıram.

Nekrasovun bir sözü var:- "Sən şair olmaya bilərsən, sən vətəndaş olmalısan". Məqamında demək istəyirəm:

***Dağlar yenə güllənəcək,***
***Çaylar yenə sellənəcək,***
***Ölsəm ruhum dillənəcək,***
***Vətən sənin əsgərinəm,***
***Vətən sənin əsgərinəm!***

**Xalq Sizə güvənir, Sizə arxalanır Cənab Prezident! Sizin istəyinizlə, xalqın istəyi üst-üstə düşür, şanlı tariximizi birlikdə yazırıq. Bu ruh yüksəkliyimizin qarşısında heç kim dayana bilməz. Siz tarixi iş gördünüz, düşmənin yuvalarını darmadağın edirsiz. Bəli-" Qarabağ Azərbaycandır!" Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev!**

# Cənab prezident!

**Hörmətli İlham Əliyev cənablarına!**

2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə ”Şərq tərəfdaşlığı” proqramının 5 illiyinə həsr olunan samitdə yüksək tribunadan Koroğlu tək nərə çəkib,Cavanşir cəsarəti göstərməyiniz ümumilikdə bütün türk dünyası insanlarında yüksək əhval-ruhiyyə yaratdı.Həmin gündən mən sizin cəsarətinizə vurulmuşam Cənab Prezident!Aqillər demişkən!

”Hökmdar o insan ola bilər ki, dünya xəstələnəndə onu müalicə edə bilsin.”

Siz bütün dünya azərbaycanlılarının uzun illərdi düçar olduğu,sağalmaz bir yaranın dərmanını tapdınız.

**Cənab prezident!**

Hazırda Azərbaycan dilində 70 minə yaxın dilin ünsiyyət vasitəsi olan sözolduğu halda, o, sözlərin içərisindən, sizin, cəsarətinizi,humanistliyinizi,hünəriizi,əqlinizi,idarəçiliyinizi qeyrətnizi əks etdirən dəyərli söz tapa bilmirəm.

Bunun üçün ulu yaradandan yeni söz istəyirəm.Qoy Zəngəzur dağlarının abu-havası,sizi daha da ucalara qaldırsın.Sizin Qarabağ uğrunda apardığınız haqlı müharibə tarixə qızıl hərifləlrə yazılacaq

**Cənab Prezident!**

Siz əzəmətli Murov dağının yamaclarından çıxan bulaqların,dağın ətəyində birləşərək,əmələ gətirdikləri çayın qabağını,düşmənin qoruduğu ağır-möhtəşəm bir divarı dağıtmaqla çayın qabağını açdınız.O, çayın suyundan bu gün bütünlükdə, Tərtər, Mil-Muğan çölləri bəhrələnir.

**-Siz ümumilikdə yüz minlərlə insanların üzərindən qaçqın-didərgin ünvanını götürdünüz.**



**-Siz 520-dən artıq Qarabağ hadisələri ilə əlaqədar olan görüşlərə,danışıqlara son qoydunuz.**

**-Siz bu gün 7-sindən 80-na qədər dünya Azərbaycanlılarının, hörmət və məhəbbətini qazandınız.**

**-Siz bu gün insanlıq simalarını itirmiş,tülkü,qiyafəsində, şir gücündə olan insanlara, öz dəyərli hökmünüzlə, layiqli cavab verirsiniz.**

**Cənab Prezident!**

**-Siz şəhid ata-analarının,göz yaşlarını,sevinc yaşı ilə əvəz etdiniz.**

**-Siz Kəlbəcərin,isti-suyunu, yer altı-yer üstü sərvətlərinin bəhrəsini özlərinə qaytardınız.**

**-Siz ümumilikdə 180-dan artıq xarici qurumların işğal-altında olan regionlarda,qurub-yaratdıqları şirkətləri, müəsisələri yerlə yeksan etdiniz.**

**-Siz son ilər, itib-getməkdə olan,xalqımızın, qeyrətini, hünərini,ismətini, abır-həyasını özlərinə qaytardınız.**

**-Siz insanlar arasında yaranan biganəliyə, ehtinasızlığa,biri-digərlərinə qarşı hörmətsizliyə son qoydunuz.**

**- Siz öz yaraşığı, füsunkarlığı ilə dünyada məşhur olan Zəngilanın çinar meşəsini,onun xüdafərin körpüsünü bizlərə qaytardınız.**

**Cənab prezident!**

Bu gün bizi istəyən bütün dünya xalqları əllərində al bayraq,gözlərində sevinc duyğuları ilə uca tanrıdan sizə dualar oxuyurlar.

**Cənab Prezient!**

**-Siz öz mənbəyini Zəngəzur dağlarından götürüb, gah güclə, coşğun-nəşəsilə baş götürüb gələn ”Həkəri”, ”Bərgüşad” çaylarını,onlarda üzən ”Smel” balıqlarını Qubadlılara qaytardınız.**

**-Ey! Ulu Öndərin Qəhrəman oğlu bir vaxtlar Yunan sərkərdəsi, İskəndərin atası Filippi üçün bağışlanmış ata heç kəs minə bilməmişdir. Bu gün siz ”Bukefali”-nəslindən olan ata minərək, İskəndər təki nərə çəkib, Qarabağ ormanlarını öz-əqil və zəkanızla yağı düşmənlərdən təmizləyirsiniz!**

**-Cənab Prezident qədim yunan sərkərdəsi İrana yürüşü vaxtıyolda qalın ipdən hazırlanmış bir düyünə rast gəlir-heç kəsin aça bilmədiyi bu düyünü,İskəndər bir qılıncla açır.**

**-Hazırda oturduğunuz prezident kürsüsü sizin üçün çox kiçik görünür.Sizə ümumilikdə Qafqazı idarəedici kürsü lazımdır.**

**-Siz uzun illər bağlı qalmış on minlərlə qapını açaraq,içəri şadlıq hissləri doldurdunuz.**

**- Türk və Azərbaycan birliyi əbədi olsun.**

Cənab Prezident sizin hazırki, fəaliyyətiniz uzun illər tədqiqat obyekti olacaq.Bu gün onu yazıb qurtarmaq mümkün deyil.

**Mais Yanardağ**



*Əvəz Mahmud Lələdağ*
*Şair, dramaturq, publisist*
*SDU-nun müəllimi*

## *Eşq olsun ordumuza*

*Dərdimin ən böyüyü,*
*Vətən dərdidi, qardaş.*
*Səngərlərdə vuruşan,*
*Elin mərdidi, qardaş.*
*İgidləri, ərləri,*
*Geridönməz nərləri,*
*Özümüztək qoruyaq.*
*Qarabağ torpağını,*
*Gözümüztək qoruyaq.*
*Sənin, mənim, hamımızın,*
*Vətənidir, bu, Vətən.*
*Onun güllü bağına,*
*Qoymayaq, girsin yetər.*
*Dağlara dırmaşdıqca,*
*Cavanlıq çağı gəlir.*
*Gülləri qoxlayıram,*
*Vətənin qoxusu gəlir.*
*Torpaq azad olduqca,*
*Gözümə yuxu gəlir.*
*Tezliklə dönəcəyik,*
*Öz doğma yurdumuza.*
*Eşq olsun ordumuza.*
*Ali baş komandanın,*
*Hökmü gözə göründü.*
*Düşmənin beli sındı,*
*Dizin-dizin süründü,*
*Bu hikmətin mənası.*
*Əzəl gündən dərindi.*
*Qarabağ özümündü,*
*Öz tarixi yerimdi.*
*Tezliklə dönəcəyik.*
*Tarixi yurdumuza.*
*Eşq olsun ordumuza.*
*Millətin birliyindən,*
*Şanlı ordum güc aldı,*
*Yağı düşmən diz çökdü,*
*Qarşımızda alçaldı.*
*Yurdun cənnət qapısı,*
*Üzümüzə açıldı.*
*Ruhlar təzələndi,*
*Xarı bülbül əl çaldı.*
*İşğal olan bölgədə,*
*Bayrağımız ucaldı.*
*İgidləri, ərləri,*
*Özümüztək qoruyaq.*
*Qarabağ torpağını,*
*Gözümüztək qoruyaq.*
*Tezliklə dönəcəyik.*
*Öz doğma yurdumuza,*
*Eşq olsun ordumuza!*

## *Millət, birləş amandır!*

*Nə demişik bəsdir, millət*
*Mənəm-mənəm deyə-deyə,*
*Başımızı kəsdik, millət,*
*Səbirliyik dedikcə biz,*
*Qanıqlaşdı düşmənimiz.*
*Ayaq aldı üstümüzə,*
*Biz didişdik içimizdə,*
*Onlar durdu qəsdimizə,*
*Ər oğullar, igid ərlər ,*
*Getdi bada,*
*Aman Allah nələr gördüm,*
*Nələr çəkdim bu dünyada,*
*Dağıtdılar Ələsgərin tifağını,*
*Söndürdülər neçə evin çırağını.*
*Yurdlarımız talan oldu,*
*Nahaq qanlar axıdıldı,*
*Əbəs yerə ölən oldu.*
*Atalardan bir məsəl var,*
*Güc həmişə doğanaqdan keçər, millət.*
*Ağlamaqdan bir şey çıxmaz,*
*Gəl ağlama, naçar, millət.*
*Kürsülərdə alovlanma,*
*Özgələrdən kömək umma.*
*Öz gücünə, qeyrətinə arxalan sən,*
*Bu torpaqın qüdrətinə arxalan sən.*
*Şəhidlərin qisasın qoyma yerdə,*
*Elimizin bu yasını qoyma yerdə.*
*Ayağa dur, sən hamını yığ başına,*
*Get düşmənin yolunu kəs,*
*Tətiy çəkən barmağını,*
*Qolunu kəs, gözünü tök.*
*Çərmıxa çək,*
*Lazım gəlsə qabağa çıx,*
*Torpaq üçün canından keç.*
*Torpağını qoruyar,*
*Torpağın öz züriyyəti.*
*Vaxtdı millət, dur boğaq,*
*Bu qaranlıq zülməti,*
*Yağılara qalmasın, elimizin sərvəti.*
*Əbədi ləkə olar bizə elin töhməti.*
*Bazarlarda satılmır, satın qalam qeyrəti.*
*İndi qeyrət dəmidi, yada nifrət dəmidi.*
*Nə yatmısan daş kimi,*
*Qalx ayağa quş kimi,*
*Yatdığın bəsdir daha*
*Dur sarılaq silaha.*
*Vətən sənin anandı,*
*Dur içək vətən andı.*
*Birləş millət,amandır!*

## *Ölmək istəmirsən, çıx torpağımdan*

*Sənə sualım var, terrorçu dığa,*
*Niyəəl çəkmirsanqandan, qadadan.*
*Vurursan hər sözü qulaq ardına,*
*Böhtan yağdırırsan hər zaman, hər an.*

*Nə vaxt yaranacaq əmin-amanlıq,*
*Nə vaxt girəcəkdi qılınclar qina.*
*Haçan çatacaqdı sənə insanlıq,*
*Haçan yetişəcək savaşlar sona.*

*Niyə istəmirsən könüllər gülə,*
*Bülbüllər məst ola meydan, məzədən.*
*Niyə cəhd edirsən xar düşə gülə,*
*Gülün bağrı yana bir də təzədən.*
*Niyə əritmirsən qəlbindəkini,*
*Günahsız qanlardan dərya yaranır.*
*Niyə bəsləyirsən qəzəbi, kini,*
*Torpaq cadarlanır qanla sulanır.*

*Bu gün "Haystanda" iflicdi həyat,*
*Bu gündən sabaha ümid qalmayır.*
*Sənin ucbatından bütün kainat,*
*Gecə də, gündüz də sakit olmayır.*

*Yerlə yeksan olur ulu saraylar,*
*Bağban itkin düşüb bağına gəlmir.*
*Yanıb külə dönür dolu saraylar,*
*"ATƏT" gendən baxır yaxına gəlmir.*

*Söylə, nə qazandın, ülfəti kəsdin,*
*Bu gün sığındığın yer-yurd mənimdi.*
*Sənə üz verdikcə astar istədin,*
*Mənim qabağımda dur görüm indi.*

*Haqqı-ədaləti düyünləyirsən,*
*Əziyyət verirsən ana torpağa.*
*Sənin olmayana mənim deyirsən,*
*Çörəyi dizinin üstündə dığa.*

*Niyə arzuları düyünləyırsən,*
*Əziyyət verirsən bəşəriyyətə.*
*Dünən dediyini bir də demə sən,*
*Yazıqsan gəl qoşul bu cəmiyyətə.*

*Elə düşünməki bu yalvarışdı,*
*Mən az çəkməmişəm səntək zalımdan.*
*Sinəmdə dağların qarış-qarışdı,*
*Heç vədə dönmərəm öz amalımdan.*

*Sənin göz dikdiyin cənnət Qarabağ,*
*Mənə Nuh Nəbidən miras qalıbdı.*
*Gözümün içinə yaxşı-yaxşı bax,*
*Səndənalacağımqisasqalıbdı.*

*Bunu məndən umur dərdli analar,*
*Gözləri yol çəkən nişanlı qızlar.*
*Bunu məndən umur günahsız qanlar,*
*Gərdəksiz gəlinlər, toysuz cavanlar,*

*Dodağım qaçsa da, üzüm gülməyir,*
*Elimdən, obamdan uzaqlaşmışam.*
*Yurdumdan şad xəbər, soraq gəlməyir,*
*İllərlə kədərlə qucaqlaşmışam.*

*Vətənin tozundan nurlanar gözüm,*
*Ürəyimdi Vətən, canımdı Vətən.*
*Özüm qalxmalıyam cihada, özüm,*
*Damarda çağlayan qanımdı Vətən.*

*Ölmək istəmirsən, çıx torpağımdan.*
*Çırpılsın, pak olsun Natavan yurdu.*
*Nəfəsin yox olsun Qarabağımdan,*
*Səni məhv edəcək müzəffər ordu.*



*Seyran Əliyev*

## *Kişilər daşıyar qeyrət yükünü*

Vətən zor duruma düşdüyü zaman,
Kişilər daşıyar qeyrət yükünü.
Sınağa çəkilər yaxşıyla yaman,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Ayağa qalxarlar ərlər-ərənlər,
Düşmən gülləsinə sinə gərənlər,
Mərd ölər,namərdsə boş-boş çərənlər,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Güllə də bəyənməz, dəyməz qorxağa,
Seçər layiqlisin, qurban torpağa,
Mərd verər Vətənə canın sədağa,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Soylu atam-anam vətəndir deyər,
Şəhid atasının paltarın geyər.
Soysuz qorxusundan ürəyin yeyər,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

Düşmən səngərinə atılan bir daş,
Bir yağı öldürüb olar vətəndaş.
Görsə də düşmənə möhtacdı qardaş,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

İllərcə zəhmət çək, illərcə böyüt
Fərq etməz, sonsuzdu bar vermez söyüd.
Bütün ömrün boyu versən də öyüd,
Naxələf tərpətməz bircə tükünü,
Kişilər daşıyar qeyrət yükünü!

## *Həsrətim*

Mən öləndə tanrım alıb ruhumu,
Qacarıma aparsaydı, nə dərdim,
Qarış-qarış dolaşardım yurdumu,
Hər yerini didik-didik didərdim.

İlk tutardım Böyükdağın yolunu,
Dırmaşardım Ağcığırın qolunu.
Toplayardım qaratikan kolunu,
Deyərdim ki, qızılgüldü, mən dərdim.

Tikanları boyanaydı qanıma,
Ağrıları yayılaydı canıma,
Şəhidlərin ruhun alıb yanıma,
Məzarların ziyarətə gedərdim.

Pirdən qalxıb, Mollabağın keçərdim,
Həştəfərin buz suyundan içərdim,
Köndələnin qıjısını biçərdim,
Balıqların öpüşməsin güdərdim.

Dolaşardım atam salan bağların,
Xatırlardım yemiş-qarpız tağların,
Zənn edərdim yaşadım o çağların,

Bu günümü, o günümə döndərdim.
Sonda qalxıb Qolğatanın yalını,
Seyr edərdim Cəmilənin halını,
Bələdlərdim arısının balını,
Bəlkə köçkün ruhlarına göndərdim.

Axşamüstü evimizə çatardım,
Dərdi-qəmi bir tərəfə atardım,
Dədə-baba ocağını çatardım,
Ölümümü orda bayram edərdim.

# İKİ HEKAYƏ



*Ələsgər ƏLİOĞLU*

## *QUŞ BURAXAN NİZİBALA*

***(”Nizibala Doymazlı” serialından)***

Nizibalaya məlumat çatdı ki,yuxarı çinli məmurlardan biri görülən işlərlə ətraflı tanışlıq üçün yaxın günlərdə onun rəhbərlik etdiyi rayona gələcək.

Buna görə də o, hazırlıq işlərinə girişdi. Ətrafda səliqə-səhman yaratmağa başladı.

Beləlliklə,Nizibala ilkin olaraq ağacəkmə kampaniyasını həyata keçirdi.Ona dəfələrlə bildirsələr də ki, ağac oyanıb, indi əkmək olmaz,o,süysününə verdi...

Çalalar qazıldı.Artıq yarpaqlamış ağaclar bir-birinin gözündə cərgələndi...Nizibala işçiləri gecə-gündüz ağacların dibində keşikçi qoydu.Hansı ağacın yarpağı soluşmaq istəyirdisə,tezcə dibinə su tökdürürdü...Bir ucdan işçilərə göstərişlər verirdi:

-Necə eləyirsiniz eləyin,ağacların yarpaqlarını hələlik solub-saralmağa qoymayın.Təki qonaq gəlib-getsin,sonrası necə olursa olsun...

Təxminən beş-on gündən sonra həmin çinli məmur Nizibalanın işlədiyi rayona təşrif buyurdu.ayrı-ayrı yerlər nəzərdən keçirilərkən qonaq yarımçıq bir tikilini göstərib soruşdu:

- Nizibala müəllim,o nə tikilidir?

-Müəllim,qaçqınlar üçün yaşayış evi olacaq...

-Lap yaxşı. Bu,xeyirxah işdir.Amma bir deyin görək,ora yol hardan keçəcək?

Nizibala əlini yaşıl ağaclar cərgələnmiş səmtə uzadıb:-Müəllim,yol burdan keçəcək.-deyə şəstlə cavab verdi.

Qonaq tərəddüd dolu baxışlarla üzünü Nizibalaya tutub dilləndi:

-Bəs axı orada ağac əkməmisiniz?

-Müəllim,sizin gəlişiniz münasibətilə əkmişik...

Qonaq başını qaldırıb tərs-tərs Nizibalanın üzünə baxdı...

Nizibala quş buraxdığını hiss etdi.Ancaq bu quşu daha tutub geri qaytara bilməzdi.O,sanki yuxudan indi ayıldı.Artıq hər şey gec idi...

## *BALALAR... BƏLALAR...*

Beş yaşlı Toğrul cəbhə bölgəsində yaşayan nənəsigildə qonaq idi.Bir səhər o,evdəkilərin gözündən oğurlanıb yaşıl dikdirdə gəzib-dolanırdı.

Birdən bundan duyuq düşən nənəsi onu həyəcanla səslədi:

-Toğrul,ay Toğrul!Dikdirdən cəld düş aşağı!Bala,ermənilər tez-tez atəş açırlar.Səni vurarlar!

Toğrul cəld qaça-qaça nənəsinə yaxınlaşdı.İcazəsiz dikdirə qalxdığına görə özünü günahkar sayıb başını aşağı saldı.Dayanıb bir qədər fikrə getdi.Sonra üzünü nənəsinə tutub dedi:

-Nənə,niyə ermənilərin balaları yoxdur?

-Var,mənim qəşəng balam,var...

-Yox,məni aldadırsan,nənə.Onların balaları yoxdur!..

-Nənə bir qədər hirslənən kimi oldu:

-Sənə dedim ki,var də!..

-İnanmıram,nənə...Əgər ermənilərin balaları varsa,onda niyə qorxursan!? Onlar heç məni vurarlarmı!?

-Əziz balam,vurarlar,vurarlar! Yorma məni...Hələ bilmirsən ki, ermənilərin təkcə balaları yox,həm də bəlaları var!..

Toğrul nənəsinin dönə-dönə verdiyi cavabdan ermənilərin balaları olduğuna inansa da,onların bəlalarından heç nə başa düşmədi,heç nə anlamadı.

Tərəddüd keçirə-keçirə nənəsinin ətəyindən yapışdı...



Mönsüm Alışov,
Pedaqogika üzrə elmlər doktoru, professor

# Ən ümdə vəzifələrdən biri insanların təhsillik səviyyəsinin yüksəlməsinə nail olmaqdır

**Pedaqoji ədəbiyyatda,normativ-hüquqi sənədlərdə təhsil standartı termini işlənsə də bunlar mahiyyət etibarı ilə fənlərin məzmununda öz ifadəsini tapmırdı.Təhsil varsa,standartlar və proqramlar da olmalıdır.Keyfiyyətcə cavabdehlik daşıyan müəllim qəbul olunmuş təhsil standartlarından kənara çıxmadan fərdi tədris proqramı tətbiq edə bilər. Təhsil ardıcıl aparılan dövlət siyasəti nəticəsində yeni inkişaf pilləsinə qalxmışdır. İnsan potensialının inkişafı təhsil sistemindən asılıdır.Təhsil sistemində gedən modernləşmə,yeni təlim texnologiyalarının,innovasiyaların elmi əsaslarının tətbiqi xüsusiyyətlərinin əvvəlcədən işlənməsi həlledici mahiyyət daşıyır.**

Azərbaycan yeni təhsil sisteminə tədrici olaraq keçir,gənclərinizin daha güclü təhsil alması üçün ardıcıl olaraq tədbirlər görülür.Əsas ideya odur ki,azərbaycanlı hər şeydən öncə mənəviyyatlı,savadlı,intellektual səviyyəsi yüksək olan insan olmalıdır.Maddi bazanın təkmilləşdirilməsi məktəbin səviyyəsinin qaldırılmasının ən birinci şərtlərindən hesab edilir.Məktəbin adlı-sanlı olmasının ən birinci göstəricisi,dünən də belə idi,indi də belədir,o da şagirdlərinin xoş sorağıdır.Orta məktəbdəki uğurlu təhsilin nəticəsi ali məktəblərə qəbulla dəyərləndirilir,artıq məktəblər bu məsələyə plan və öhdəlik kimi baxırlar,mükafat və cəza da bəzən buna əsaslanır,işə yanaşma tərzi baxımından bunu məqbul hesab etməsək də fakt da faktlığında qalır.Kim ki öz biliyinə görə ali məktəblərə qəbul olursa,məktəbin də ən böyük qürrəsi elə bu göstəricisidir.

### Sovet İttifaqının dağılması

başa çatanda biz çətin təsəvvürümüzə gətirərdik ki, vur-tut on ildən sonra dünya bütünlüklə informasiya texnologiyaları vasitəsilə idarə ediləcəkdir. Prezident İlham Əliyev XXI əsrin əvvəlində dövlət siyasətinin strategiyasını formalaşdırarkən sabah Azərbaycanın ictimai-siyasi və sosial -iqtisadi inkişafının əsas inteqratoruna çevriləcək nəsil haqqında düşünür. Çünki qarşıdakı işlərin və layihələrin uğuru bu nəslin sabit, təhlükəsiz və firavan inkişafından asılıdır. Azərbaycan təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki,bizim təhsil sistemimiz dünya təhsil sisteminin müvafiq standartlarına uyğunlaşdırılsın.Təhsil sahəsində əldə olunan uğurların təkcə məktəblərin maddi bazasının möhkəmləndirilməsi ilə məhdudlaşmır. İslahatlar,ilk növbədə bu sahədə fəaliyyət göstərənlər tərəfindən qəbul edilməlidir,əvvəlki dövrlərə nisbətən bu islahatlar əksəriyyət tərəfindən çox razılıqla qarşılanır.Şübhəsiz ki,ölkə iqtisadiyyatının dinamik inkişafı təhsil sisteminin də təçəkkülünə zəmin yaratmışdır.Hazırda qarşıda duran ən ümdə vəzifələrdən biri Milli Kurikulumun tətbiqi nəticəsində insanların təhsillik səviyyəsinin yüksəlməsinə nail olmaqdır. Təhsillik səviyyəsi əvvəllər də, indi də bəşəriyyətin ən mühüm humanist dəyərləri olaraq qalır. Təhsilin dəyəri, birinci növbədə, insan tərəfindən əldə edilmiş biliklərin nə dərəcədə onu əhatə edən sosial gerçəkliyə adaptasiya olunmasına və bu gerçəkliyə humanist təsir göstərməsinə imkan verməsi ilə müəyyən edilir.

***

Bu gün təhsilimizin gündəmdə olan ən prioritet problemlərindən biri onun idarə olunmasıdır. Müasir şəraitdə keyfiyyətin idarə olunması kimi vurğulanan bu texnologiya aktual olduğu qədər də araşdırma tələb edən bir məsələdir. Mahiyyət etibarilə keyfiyyətin idarə olunması, təbii olaraq, insan resurslarının idarə olunması, ictimai amirlik üsulunu sıradan çıxarır, təhsildə demokratik idarəetmənin təminatçısına çevrilir. Rəhbərlik idarəetmə ilə müqayisədə daha ümumi anlayışdır.

### Onun hüdudlarında

***idarəetmənin müxtəlif sahələri üçün ümumi prinsipial istiqamətlər müəyyənləşdirilir.İdarəetmə iştirak edən şagird,müəllim və valideynləri yaradıcı fəaliyyətə istiqamətləndirmək üçün onların qarşılıqlı işinin təşkilinə nail olunmalıdır.Pedaqoji prosesin təkmilləşməsi,səmərəli yollar,metodlar və vasitələr axtarmaqda şagirdlərin yaradıcı düşünməsi üçün stimul yaradılır.Təhsil alan şagirdin yetişdirilməsində,təlim-tərbiyə işinin qurulmasında əsas ağırlıq məktəbin üzərinə düşür.***

Ailə,ictimaiyyət və məktəbin vahid istiqamətdə əlbir olmasına səy göstərilməlidir.Şagirdin mənəvi keyfiyyətləri,xarakter əlamətləri,müəllimin,müəlliminki də direktorun gözü qarşısında canlanır,təşəkkül tapır.Direktor idarəetmədə ikinci pillədə gəlsə də əsas sayılır,o məktəbin gündəlik fəaliyyətini planlaşdırır və onu idarə edir.Məktəb rəhbərliyi müəllimlərə tövsiyə xarakterli istiqamətlər verir,onları tədris,əyani vəsaitlərlə təmin edir,müəllimlərə diqqət və qayğı göstərir.

Əvvəllər bütün bunlar məktəb direktorlarının əlində idi, yəni müəllimin işə qəbulu, bir məktəbdən digərinə köçürülməsi işini direktorlar aparırdı. Ancaq bu sahədə o qədər neqativ hallar baş verdi ki, nəticədə Təhsil Nazirliyi işə qəbulu mərkəzləşdirilmiş qaydada keçirməyə məcbur oldu. Hesab edirəm ki, gələcəkdə bu səlahiyyətlər yenidən məktəb direktorlarına veriləcək.Müəllimin işə qəbulu, qiymətləndirmə sahəsində vasitələrin hazırlanması və digər məsələlər mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

***Özünüidarə etmək o demək deyil ki, məktəb direktorları bu və ya digər şəkildə hər şeyi özləri etməlidirlər. Burada söhbət qanunvericilik çərçivəsində fəaliyyət göstərməklə səlahiyyətlərin artırılmasından gedir. Səlahiyyətlərin artırılması isə öz növbəsində daha yüksək cavabdehlik və hesabat verme tələb edir. Səlahiyyətlər aşağı olduğuna görə məktəb rəhbərliyi nəticələrə görə cavabdehlikdən boyun qaçıra bilir və "idarəetmə məsələləri səlahiyyətimdə olmadığından, nəticəyə də mən məsuliyyət daşımıram" deyir. Müəllim mərkəzləşdirilmiş imtahan verdikdən sonra məktəbə işləməyə gəlir. Əgər məktəb direktorunun müəllimi işə qəbul etmək səlahiyyəti varsa, sabah həmin müəllimin göstərdiyi nəticəyə görə də məhz özü cavabdehlik daşımalıdır. Bu, çox önəmli bir dəyişiklərə səbəb ola bilər.***

Lakmus kağız rəngin dəyişir - reaksiyadır. Tərbiyədə də uşaq öz vəziyyətini dəyişməlidir.Məktəb üçün iki vacib cəhətə daha çox önəm verilməlidir-kollektivdə sağlam mühitin yaradılmasına,ikincisi də davamiyyət faizinin yüksəldilməsinə.İdarəetmə məsələlərində bi iki məsələ,hər iki problem bir-birilə bağlı olduğundan onları bir müstəvidə həll etmək lazımdır.Məktəibdə yaradılan nizam-intizam,tərbiyənin düzgün təşkili bu amildən çox asılıdır.Şagird məktəbdə qayda-qanunu pozur, nizam-intizama tabe olmur və məktəb belədə ona hansısa inzibati cəza tətbiq edəndə müdaxilələr,təzyiqlər artır.Uşaq məktəb qayda-qanununu pozmuş olsa, ona tələb olunan cəzanı tətbiq etmək çətin olur.Ən ciddi cəza kimi şagirdləri məktəbdən kənarlaşdırmaq məktəbin səlahiyyətinə aid deyil.Ən yaxşı halda həmin iki cəhətə fikir verib onun təşkilinə ilboyu nail olmaq lazımdır,onda bu problem də öz həllini tapar.

### Pedoqoji prosesdə

***müəllim təhsilin inkişafı ilə əlaqədar qarşıya qoyulan məqsədin həlli üçün texnoloji baxımdan fəaliyyətini planlaşdırmağı bacarmalıdır. Müəllim olmaq üçün öyrətməyin yolları, üsulları, metodlarını düzgün tətbiqini təmin edən texnologiyaları mənimsəmək günün reallığıdır. Kurikulum mərkəzində həyata keçirilən müzakirələrdə ixtisas-fənn müəllimlərinin iştirakını vacib sayırıq. Fənn kurikulumu ilə əlaqədar işçi qrupunun təşkil etdiyi müzakirələrdə yüzlərlə müəllimin iştirakı, keçirilən işgüzar mühitdə dəyərli fikirlərin ifadə olunması, təkliflərin, iradların, arzuların bildirilməsi yekunda daha əhəmiyyətli bir sənədin hazırlanmasına zəmin yaradır. Məktəbdaxili və məktəbdənkənar təlim arasında mövcud olan fərqlərin aradan qaldırılmasında və əldə edilən biliklərin həyatla uzlaşdırılmasında inteqrativ təlimin rolu böyükdür.***

Təhsil sferasında keyfiyyət, təhsilin nəticələrinə uyğun müəyyən edilmiş standartlara müvafiq öyrənilmələrin səviyyəsini müəyyən edən ən mühüm göstəricisidir.Keyfiyyətli təhsil sisteminin qurulmasına, onun idarə edilməsinə yanaşmalar müxtəlifdir. Təhsilşünaslıqda idarəetmə, innovasiyaların tətbiqi, problemlərin araşdırılması bu günün əsas tələblərindəndir. Gənc nəslin tərbiyəsi ilə məşğul olan müəllim innovasiya xarakterli nadir təhsil sferası kimi qəbul olunur. Pedaqoji ali təhsil müəssisələrində səriştəli kadr hazırlığında keyfiyyətin idarəedilməsinin monitorinqi təhsilin qarşısında dayanan əsas məqsədlərin həyata keçirilməsində özünəməxsus rol oynayacaqdır. Peşəkar müəllim fəaliyyətində yaradıcılıq imkanlarını göstərmək üçün tədqiqatlarını genişləndirmək qayğısına qalmalı, dərslərini diqqətlə müşahidə etməklə şagirdlərinin dərsin gedişinə təsir gücünü artırmalıdır. Təhsil Nazirliyi respublikanın 7 orta ümumtəhsil məktəbində yeni pilot layihəni reallaşdırdı. Layihənin məqsədi bu məktəblərdə dilin tədrisi və təkmilləşdirilməsi üzrə səviyyəni yüksəltməkdir.

### Qabiliyyət elə bir məharət ki,

***o, zaman və şəraitə görə üzə çıxır, xüsusilə müəllimlik qabiliyyəti. Pedaqoji qabiliyyət sistemli xarakter kəsb edir. Özü də bu pedaqoji qabiliyyət özündən sonrakı üçün psixoloji zəmin yaradır...Pis şagird yoxdur, pis valideyn və pis müəllim var. Şagird üçün şərait yaradılmalıdır-məktəbdə müəllim, evdə valideyn. O, həmişə nəzarət altında olmalıdır, amma onun müstəqilliyi və sərbəstliyi qorunmaq şərtilə. Valideynlərin əksəri sanki uşağından bir az qıraq düşüb. Ata səhər çıxır evdən, gecəyarı evə dönür, belədə valideyn məsuliyyəti də müəllimin üzərinə gəlir...***

Müəllim haqqında müxtəlif pedaqoji mülahizələrin olduğu məlumdur. Onun həssaslığını, yüksək insani hislərə, qnostik keyfiyyətlərə malik olmasını dəyərləndirənlər də vardır. Son zamanlar onun təşkilatçılıq, öyrətmə, perseptiv, kommunikativ, təlqinedici, tədqiqatçılıq, elmi-idraki qabiliyyətlərinin olmasına daha çox üstün yer ayrılır. Əlbəttə, bu keyfiyyətlərin hamısı müəllim üçün lazımdır və onların müəllim hazırlığı prosesində inkişaf etdirilməsi zəruridir. U.Çörçillin də dediyi kimi, "mən həmişə öyrənməyə hazıram, lakin həmişə kiminsə məni öyrətməsinə hazır deyiləm". Tədrisin ən gözəl yolu da elə budur, ona lazım olan informasiyanı təbii yolla həll etsin.

***

2005-ci ilin avqustunda "Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" (2005-2007-ci illər) qəbul olunub. Həmin proqramın hədəfi orta ümumtəhsil məktəblərinin kompüterləşdirilməsi idi. Xüsusən də hər 29 şagirdə bir kompüterin düşməsi bu proqramın qarşısında duran əsas vəzifələrdən biri idi. 2008-ci ilin iyun ayında "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqda sərəncam imzalamışdır. Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya (2003-2012-ci illər)" əsasında hazırlanmışdır. 2010-cu il Təhsil Nazirliyi tərəfindən "Təhsildə İKT ili" elan olundu. "Təhsildə İKT ili" çərçivəsində elektron resursların yaradılması barədə yeni layihələr və tədbirlər həyata keçirilir. Dövlət proqramı çərçivəsində təhsil sahəsində ən genişmiqyaslı "Elektron təhsil" respublika müsabiqəsi keçiriib.

Prezident İlham Əliyev Azərbaycanda İKT-nin tətbiqini prioritet məsələ hesab etmişdir. İKT-nin cəmiyyətin müxtəlif sahələrində tətbiqi ilə bağlı milli strategiya qəbul olunmuşdur. Ölkəmizdə informasiya cəmiyyətinin artıq praktiki müstəvidə, bir konkret fəaliyyət planı çərçivəsində icra olunması üçün müəyyən tədbirlər həyata keçirilir. Milli kurikulumun tətbiqindən ötən zaman müddətində pedaqoji sahədə çalışanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi zərurəti yarandı. Bu gün yeni təlim texnologiyalarından kənarda qalmaq mümkün deyildir. Məhz buna görə də müəllimlər özlərinin ehtiyaclarına uyğun İKT, kurikulumun tətbiqi ilə bağlı kurslardan keçərək öz biliklərini təkmilləşdirirlər.

Dövlət başçısının informasiya-kommunikasiya texnologiyalarıının inkişaf etdirilməsi yolu ilə respublikanın zəngin iqtisadi potensialının insan kapitalı ilə nailiyyətlər əldə edən Azərbaycanda idarəetmənin müasir texnologiyalar əsasında qurulması,ilk növbədə zamanın tələbindən irəli gəlir.Təlim texnologiyası üzrə avadanlıqlardan istifadə etmək nə təlim texnologiyasının keyfiyyətinə təminat verir,nə də təlim və tədrisin səmərəliliyini artır.Bu istiqamətdə atılan addımlardan biri də ölkəmizin təhsil tarixində ilk dəfə olaraq Azərbaycan tarixi,kimya,fizika,biologiya fənləri üzrə elektron təlim materialları və əyani vəsaitlərin hazırlanıb məktəblərə çatdırılması olmuşdur.

**Ölkənin təhsil sistemində İKT-nin hazırkı tətbiq səviyyəsi qənaətbəxş deyil. Belə ki,bütövlükdə təhsil sisteminin informasiya infrastrukturunun səviyyəsi günün tələblərindən çox uzaqdır. Şagird, tələbə, kompüter nisbətinin bütövlükdə ölkə üzrə, xüsusilə də bölgələrdə və kənd yerlərində optimallaşdırılmasını qarşıda duran ən vacib problemlərdən biri saylır. İnformasiya və kommunikasiya texnologiyalarına (İKT) malik olmadan, heç bir nəzəri metodologiyanı praktikada tətbiq etmək olmaz. Ola bilsin ki, biz yüksək biliyə və materiallara malik olaq, amma praktikada onu tətbiq etmək üçün İKT sistemlərinə malik olmaq lazımdır.**



Məhərrəm Şəmkirli

# BƏŞƏRİYYƏT NİYƏ BU GÜNƏ DÜŞDÜ?!

**Bu günlərdə "Ədəbiyyat qəzeti"ndə ünlü şair Məmməd İsmayılın "Boyuna qurban olum, Azərbaycan əsgəri Dünyanın ən mübarək qələbəsi sənindir" şeirini və bir neçə sətirdən ibarət şanlı Azərbaycan ordusuna, Azərbaycan türkünə xeyir- duasını oxudum. Oxudum və çox təsirləndim. Ona görə ki, o keçirdiyi hissiləri mən də keçirmişəm və keçirirəm. M. İsmayıl yazır: "Mən məğlub millətin məğlub şairi kimi dünyadan köçməyəcəm".**

### Ta 30 ildir ki,

məndə uca yaradana gecə- gündüz yalvarıram ki, məni itirilmiş torpaqlarımızın azadlığını, bir milyon qaçqınımızın, köçkünümüzün doğma yurd- yuvasına dönüşünü görməmiş öldürməsin. Şükürlər olsun, bir bəndəsi kimi Tanrı məni eşitdi, arzularım çin oldu. Və bu gün sevincim hədsiz- hüdudsuzdur. Ali Baş Komandanımızın qətiyyəti və Azərbaycan hərb tarixinə yeni şanlı səhifə yazan müzəffər ordumuzun igidliyi, mübarizliyi, fədəkarlığı, qəhramanlığı, döyükən ruh yüksəkliyi sayəsində 30 il düşmən tapdağında olan torpaqlarımız erməni murdarlığından, iyrəncliyindən günbə- gün, saatba-saat təmizlənir. Bu qarışıq dünyanın harasında yaşamasından asılı olmayaraq bütün Azərbaycanlılar və onların sadiq dostları bu təmizliyə sevinir, ordumuzun müzəffər yürüşünə alqış deyir. Sevincimiz mübarək!

***Ermənilərin Azərbaycan torpaqlarında məskunlaşdırılmasından üzü bəri həmişə başımız qalda olub, əziyyət çəkmişik.Süfrəmizin yuxarı başında oturub çörəyimizi yeyib, suyumuzu içən bu millət hər zaman bizə qarşı namərdlik və nankorluq edib. Torpaqlarımıza, tariximizə, mədəniyyətimizə sahib çıxıb. Hər şeyimizə mənimdi deyib. Çox vaxtı da buna ciddi yanaşmamışıq, dözmüşük. Sonu da gəlib bu günkü vəziyyətə çıxıb. Ona görə də bu gün torpaqlarımızdan onların kökünü kəsib elə atmalıyık ki, bir də bizim torpaqlarda bitməsinlər. Yoxsa yüz illərlə bizimlə torpaq davası eləyəcəklər.***

Bir igidin ömrü qədər vaxt keçdi ATƏT- in Minsk qrupunun fəliyyətindən və fəaliyyətsizliyindən. İlk vaxtlardan mən bu qurumu ata ət, itə ot verən kimi təsəvvür etdim və zaman göstərdi ki, mən fikrimdə yanılmamışam. Bu illərdə həmsədrlər dəfələrlə dəyişdi, amma məram və məqsədləri dəyişmədi. Və dəyişə də bilməzdi. Ona görə ki, onların məramları, məqsədləri Dağlıq Qarabağı həmişəlik olaraq ermənilərin əsarətində saxlamq idi. Doğludur, üzdə özlərini münaqişənin nizamlanmasına çalışan kimi göstərirdilər. Amma altdan- altdan bu münaqişəni körükləyib alovlandırırdılar. İşğal olunanla, işğalçını fərkləndirmirdilər, ikili standartlardan çıxış edirdilər.Münaqişə zonasına çox saylı nəticəsiz səfərlər edir, yaxşı yeyib- içir, deyib gülür və sonrada boş-boş bəyanatlar verirdilər. Ortada xristian təsübkeşliyi də vardı. Dəfələrlə qəzetlərdə bu qurumdan imtina etmək təklifi ilə çıxış etdim.

***Baxın, bu gün ATƏT bütün eybəcərliyi ilə bunu göstərməkdədir. Sentiyabrın 27- dən Ermənistan ordusu Azərbaycanın mülkü əhalisini, yaşayış evlərini raket atəşinə tutur, qadınları, uşaqları öldürür ATƏT ağzına su alıb seyricilik mövqeyində durur.***

Görün onların həyasızlığı hansı həddə çatıb ki, həmsədr ölkələrdən birinin-Fransanın prezidenti M. Makron (oxu makaron)Dağlıq Qarabağın Azərbaycanın tabeliyinə keçməsinəimkan verilməməlidir hayqırtısını edir. Budurmu həmsədrlik, budurmu münaqişənin həllinə köməklik? Bu yerdə yadıma rəhmətlik Şamil Qurbanovun Milli Məcilisdə "Jak Şirak qudurub" deməsi düşdü. Şamil müəllim yüzəyüz haqlıydı. Doğurdan da o vaxt J. Şirak qudurmuşd, bu gün də M. Makron qudurub. O,qudurmasaydı, ağlını itirməsəydi Azərbaycanın ərazi bütövlüyünü tanıyatanıya bu qələti eləməzdi. Bəzən adamın



bir ölkənin prezidentinin belə sərsəmlərini eşidəndə əli üzündə qalır və öz- özünə sual verir: Necə olur ki, dünya siyasətindən başı çıxmayanlar, beynəlxalq təşkilatların qanunlarından xəbəri olmayanlar hakimiyyətə gəlib ölkə idarə edirlər?

Yaddaşım məni aldatmırsa, gərək ki, N. S. Xuruşşov demişdi ki, SSRİ- ni hər bir axmaq idarə edə bilər. Əgər onu hakimiyyətə gətirsən. Bu gün dünyanı həqiqət, ədalət yox, güc və maraqlar idarə edir. Bəşəriyyət yalan adlı bir sindroma yoluxub.

### Vaxt vardı

***dünyanın harasında olmağından asılı olmayaraq kiminsə haqqı pozulurdusa, onu müdafiə etmək üçün dünya ictimayyəti ayağa qalxırdı, nümayişlər keçirib səsini ucaldırdı, ta ki, haqqı əlindən alınanın haqqını qaytarana kimi. Baxın, 30ildir əzəli dədə- baba torpaqlarımız erməni tapdağında inləyir, murdarlanır, talan olunur, tarixi abidələri tar- mar edilir, insanları qətlə yetirilir bəşəriyyət ağzına su alıb susur. Sual olunur: insanlığın görən gözü kormu, eşidən qulağı karmı oldu? O boyda Qarabağ həqiqətini, erməni vəhşiliyini, haqsızlığını görmürlərsə, eşitmirlərsə, demək kor və kardırlar.***

Mənə elə gəlir ki, bu gün Azərbaycan prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev və şanlı Azərbaycan ordusu korlara və karlara müalicə olunmanın vacib olduğunu diqtə eləyir və bundan sonra da eləyəcəkdir.

Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu, ermənilərin ora haralardan gəldiklərini və kimin vasitəçiliyi ilə onların Azərbaycanda və indiki Ermənistan adlandırılan ərazilərdə yerləşdiklərini fransız da, rus da, ingilis də bizdən yaxşı bilirlər. Çünki onların səyyahlarının, alimlərinin, rəssamlarının bunu təsdiq edən saysız kitabları, qeydləri var. Arxivlərində yüzlərlə, minlərlə təkzib olunmaz məbələr var. Bəs onda niyə, bunlar haqqı, ədaləti yox, şəri, böhtanı, yalanı müdafiə edirlər?! Həqiqətdən, haqdan, ədalərdən uzaqlaşanlar insanlıqdan uzaqlaşanlardı. Bu uzaqlaşma bu gün daha sürətlə getməkdədir. Əgər elə olmasaydı erməni vandallarının Gəncədə, Tərtərdə, Ağdamda, Ağcabədidə, Füzulidə, Goranboyda və s. yerlərdə dinc və günahsız insanları hansı silahlarla və necə məhv etdiklərini görərdilər və insanlığa qarşı törədilən bu terrorun dayandırmağı ermənilərdən tələb edərdilər, onların belə vəhşi cinayətləri təkrarlanmaması üçün dünya birliklərində səslərini ucaldardılar. Amma onlar heçnə olmamış kimi seyrici mövqeydədirlər. Onların insanlıq hissiləri ölüb. Dinc əhalinin öldürüldüyü, evlərin dağıdıldığı dünyanın aparıcı kanallarında yayımlanıb dünyanın kor olmuş gözünə soxulur, dünya çnqırını belə çıxarmır. Elə oturub- durub ermənilərin insani haqlarından danışır. Məyər erməni insandır?! İnsan bu qədər alçaq, qəddar, qaniçən, ləyaqətsiz, şərəfsiz, yalançı olmaz. Onlar heç Allah bəndələri də deyillər. Allah belə məxluqları yaratmayıb. Və yaradıbsada da yaratdığına peşman olub. Tez-tez çıxışlarda onlara erməni faşistləri deyirik.

### Məyər faşistlər belə olub?

Qətiyyən! Faşistlər bunlar elədiyi vəhşiliyin, zorakılığın heç yüzdə birini eləməyiblər. Ermənilik dünyanı cənginə alıb, bir milyondan artıq insanın həyatına son qoyan karonavirusdan erməni xəstəliyi betərdir.

Gec- tez karonavirusun dərmanı tapılacaq və bəşəriyyət bundan xilas olacaq, amma ermənınin kökü bir dəfəlik yer üzündən kəsilməsə dünya bundan həmişə əziyyət çəkəcək, başı ağrıyacaq, terrora məruz qalacaq. Onlar nəyinki yaxın qonşularına, heç insanlığa belə hörmət etməyən, onu dəyərləndirməyən, mənəm mənəmliklə yaşayan bir millətdilər. Belə bir millətin yer üzərindəyaşamağa haqqı yoxdur.

***Bir millətin ki, hələ doğulmayan uşağından, böyüyünə, qadınınından kişisinə kimi içində insanlara kin- küdrətlə, qisasla, paxıllıqla, məkirlə yaşasın, o millət yer üzünə ləkədir. Tarixə nəzər salanda görürük ki, dünyanın ən məşhur alimləri, şairləri, səyyahları, sərkərdələri onların hansı sifətlərin sahibi olduqları haqqında nələr yazmayıblar, nələr deməyiblər. Bütün bunlardan dərs götürməyən, nəticə çıxarmayan millətin milli ləyaqəti, şərəfi yoxdur.***

Namərdlik, məkirlilik, faişəlik, yedikləri qaba tüpürməklik, yalançılıq, şər atma onların əzəli və əbədi peşəsi olub.Bu peşələri ilə çox şeyə nail olublar. Dünyanın hər yerində əlləri var. Görün iş nə yerə çatıb ki, BMT-e kimi nüfuzlı bir təşkilatın qətnamələrini 30 ildir yerinə yetirmir, beynəlxalq təşkilatları (bizə çatanda buların ancaq adı olur, fəaliyyəti olmur) saya salmır. Demək bu dövlət və onun rəhbərliyi qudurub. Hər kəsə də məlumdur ki, qudurmuşlar yerindəcə gülələnir ki, kiməsə yoluxmasın.

Bu gün Azərbaycanın müzəffər ordusu qudurmuşları 30 ildə qurduqları beton istehkamlardaca məhv edir. Bu Azərbaycanın halal- hümmət haqqıdır. Bu haqq dünya tərəfindən bir mənalı olaraq qəbul edilib, ona görə də heç kim onu Azərbaycanın əlindən ala bilməz. Elə bu haqqımıza söykənib əzəli və əbədi düşmənimiz olan erməniləri igid, mərd, döyüşkən, torpağını, Vətənini canından çox sevən əsgərlərimiz

**Cənab Ali Baş Komandanımızın dediyi kimi iti qovan kimi qovurlar. Eşq olsun Azərbaycan ordusuna və Ali Baş Komandanımıza! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

# ""Dolu" filmindəki obrazımın memarı Elxan müəllimdir"

***"Film kollektiv işidir. Bir filmin uğurlu alınması bir nəfərin zəhməti sayəsində baş verə bilməz. Filmin rejissoru çox böyük faktordur. Ona görə rejissordan başlayaraq bütün heyət uğurlu olmalıdır, komanda yaxşı çalışmalı, yaxşı hazırlaşmalıdır. Rejissor güclü olmalıdır, daha sonra onun seçdiyi aktyorlar güclü olmalıdır, bütünlükdə isə komanda güclü olmaldır. İş prosesində heç kim işi axsatmamalıdır". "Ədalət" qəzetinin qonağı aktyor Elvin Əhmədovdur.***



**-Söhbətimizə elə baş rolu canlandırdığınız "Dolu" filmindən başlayaq. Bax bu filmdə ən maraqlı məqamlara toxunaq...**

-"Dolu" filmində ən maraqlı məqamlardan biri əvvəlcə rejissor assistenti işləməyim, sonradan təsadüfən baş rolda çəkilməyim olub. Təqribən ay yarım baş rolda çəkilmişəm, bundan əvvəl-filmin hazırlıq dövründə isə rejissor assistenti kimi çalışmışam. Etiraf edim ki, uzun müddət oynadığım obraza Elxan müəllimlə aktyor da axtarmışıq. Xeyli axtarışlardan sonra Elxan müəllim dedi ki, elə baş rol sənə uyğundur. Digər maraqlı məqamlardan biri də heç bir təcrübəm olmadığı halda sol əllə qumbaraatandan istifadə etməyim olub. Bir də ölüm səhnəsi haqqında danışım. Bu barədə müsahibələrimdən birində də açıqlama vermişdim. Ölüm səhnəsində filmin bütün yaradıcı heyəti təsirlənmişdi. Mən bunu heç bir filmdə görməmişəm.

### *«Ölkəmizdə kino sektoru inkişaf etməyib»*

**-Dünyada bu gün ən pis filmin tamaşaçısı ən yaxşı kitabın oxucusundan çoxdur. Hazırda ölkəmizdə kinoların inkişaf səviyyəsi nə yerdədir?**

-

Azərbaycanda kinolar varmı? Fikrimcə, yoxdur. Hələ ki, ölkəmizdə kino sektoru inkişaf etməyib. Amerikasından tutmuş Türkiyəyə qədər bütün ölkələrdə filmləri siyasi silah kimi istifadə edirlər. Biz maksimum buna tərəf yönəlməliyik. Haradan başlamalıyıq, deyə bilmərəm, amma yönəlməliyik. Azərbaycan kinosunun miqdarının sayını artırmalıyıq. Kino dayanmadan çəkilməlidir.

**-Müxtəlif obrazları canlandırmısınız. Bu obrazlar içərisində sizə ən doğma hansıdır?**

-10 ildir ki, sənətdəyəm. Bu illər ərzində çox obrazları canlandırmışam. "Dolu" filmində Pələng, "Savaşçı" serialında Məmmədəmin Əlizadə və bir də müxtəlif seriallarda fərqli obrazları oynamışam. Bu obrazların arasında Hikmət Zamanov, Şahbaz bəy, Emin və digərləri var. Obrazlarımın hər birini sevirəm. Hər biri mənə doğmadır. Böyük obrazlardan tutmuş kiçik obrazlara qədər heç birinin arasında ayrıseçkilik etmirəm. Obrazlarım arasında ayrıseçkiliyi tamaşaçı edə bilər. Tamaşaşı ən çox sevdiyi obrazı deyə bilər. Mənə qalanda isə obrazlarımın hamısını sevirəm.

### *«Önəmli olan nə reytinqdir, nə də mesaj ötürmək»*

**-"Dolu" filmində canlandırdığınız obraz ilə izləyicilərin sevgisini qazandınız. Obrazın bu qədər uğurlu alınmasının səbəbi nə idi? Elvin Əhmədovun özü?**

-Bu filmdəki obrazımın sevilməsinin səbəbini özümə bağlasam, yalnış olar. Yəni desəm ki, obraz Elvin Əhmədovdan asılı olaraq belə uğurlu alınıb, səhv səslənər. Belə olan halda ədalətsiz danışaram. Bilirsiniz ki, filmin rejissoru Elxan Cəfərovdur. Onunla mən bu rolu demək olar ki, çiyin-çiyinə oynamışam. Obrazı canlandırmağım üçün mənə çox köməkliklər edib. Düzdür, ekranda tamaşaçı məni görür, mənim oyunumu görür, mənim üzümü görür, amma Elxan müəllimin böyük bir töhvəsi var. Mən onu diqqətlə dinləmişəm, hərəkətlərinə fikir vermişəm. Zənnimcə, "Dolu" filmindəki obrazımın memarı Elxan müəllimdir.

**-Mövzunu bir az dəyişək. Elvin bəy üçün reytinq önəmlidir, yoxsa hansısa bir mesajı ötürmək?**

-Nə reytinq önəmli deyil, nə də tamaşaçıya bir mesaj ötürmək. Tamaşaçıya hansısa bir mesajın ötürülməsi ilə ssenari müəllifi çalışmalıdır. Odur ki, ssenarist yazdığı ssenaridə kütləyə mesaj ötürə biləcəyi şeyləri yazmalıdır və onları düzgün şəkildə tamaşaçıya çatdırmalıdır. Aktyor üçün önəmli olan nə reytinqdir, nə də mesaj ötürmək. Reytinq qazanmaq işin qeyriciddiliyindən xəbər verir. Aktyor üçün birinci növbədə sənət, yaradıcılıq vacib olmalıdır. Aktyor obrazı düzgün canlandırıb sevdirməlidir, insanları inandırmalıdır.

### *«Hamı filmin uğuru üçün çalışmalıdır»*

**-Oynadığını rollara əvvəlcədən hazırlaşırsınız?**

-Bəli, əvvəlcədən hazırlaşıram. Amma bir şey də var, bu ssenarini əzbərləməkdən ibarət deyil. Yəni oturub ssenari əzbərləmirəm. Bu obrazın xarekteri ilə tanış olmaqdır, obrazı mənəvi cəhətdən tanımaqdır.

Psixoloji cəhətdən özümü hazırlayıram, obrazla tanış oluram. Bütün bunlar ssenari oxuya-oxuya baş verir. Əvvəlcədən bu cür hazırlaşıram. Çəkiliş meydançasında heç bir problem yaşanmaması üçün öncədən bu kimi məqamlara diqqət yetirmək lazımdır.

**-Sonuncu sualımı verim, filmin uğurlu alınması nədən asılıdır?**

-Bildiyiniz kimi, film kollektiv işidir. Bir filmin uğurlu alınması bir nəfərin zəhməti sayəsində baş verə bilməz. Filmin rejissoru çox böyük faktordur. Ona görə rejissordan başlayaraq bütün heyət uğurlu olmalıdır, komanda yaxşı çalışmalı, yaxşı hazırlaşmalıdır. Rejissor güclü olmalıdır, daha sonra onun seçdiyi aktyorlar güclü olmalıdır, bütünlükdə isə komanda güclü olmaldır. İş prosesində heç kim işi axsatmamalıdır. Əksinə hamı filmin uğuru üçün çalışmalıdır. Bir sözlə, komanda üzvləri birlikdə işləyib bir-birinə dəstək olmalıdırlar.

**-Təşəkkür edirəm ki, dəyərli vaxtınızı ayırdınız.**

-Mən də sizə minnətdaram.

**Rövşən Tahir**



**Şairə-publisist, AYB-nin və AJB-nin üzvü, "Qızıl qələm" media mükafatı laureatı, BMT yanında Ümumdünya Sülh Federasiyasının "Sülh səfiri" mükafatçısı, "Vedibasar" qəzetinin redaktoru, "El gücü" Beynəlxalq Humanitar Assosiasiyasının Beynəlxalq Əlaqələr şöbəsinin müdiri, Azərbaycan Qaçqınlar Cəmiyyətinin Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Tovuz hadisələrinin şəhid qəhrəmanı general Polad Həşimova həsr etdiyi "Nər oğlu" poemasına Əməkdar artist Məmməd Cəfərov tərəfindən eyniadlı kantatasına həsr edilən Nəsibə İsrafilqızı vətənpərvərlik mövzusunda yazdığı məqalə, şeir və mahnılarına görə "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyi tərəfindən "Milli Ordu - 100" medalı ilə təltif edilmişdir. Nəsibə xanımı bu münasibətlə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı və yaradıcılığında uğurlar arzu edirik.**

## *«Qarabağda dizin-dizin sürünəcəm»*



**"Bildiyiniz kimi, Gənc Tamaşaçılar Teatrının aktrisasıyam. Teatrımız bütün təşkilatlar, qurumlar kimi Silahlı Qüvvələrə Yardım Fonduna pul yatırıb. Bu gün biz arxa cəbhədəyik. Təbii ki, bizim sözlərimiz əsgərlərimizə ruh verir, onları qələbəyə kökləyir. Bilirsiniz, çalışmaq lazımdır ki, saytlarda düzgün olmayan informasiyalar verilməsin. Yalnız rəsmi xəbərləri paylaşmaq lazımdır. Bir də görürsünüz ki, dezinformasiya ilə üz-üzə qalırıq. Bu düzgün deyil".**

Bu sözləri "Ədalət" qəzetinə açıqlamasında Respublikanın Əməkdar artisti Şəfəq xanım Əliyeva söyləyib:

"90-cı illərdə ermənilər xalqımızın başına çoxsaylı oyunlar açıblar. Onların törətdiyi o faciələri, Xocalı Soyqırımını, terror aktlarını heç vaxt unutmayacağıq. Elə unutmamışıq deyə də qələbəyə doğru gedirik. O illərin insanlarının çəkdiyi əzab-əziyyət yerdə qalmamalıdır. 90-cı illəri yada salmaq çox çətindir. 90-cı illərdə başımıza gələn müsibətlərə dair filmlərimiz də var. İl ərzində o filmlər göstərilir. Onlara baxan tamaşaçılar xalqın başına gətirilən faciələri görürlər. Faciələrin yaşandığı həmin günlər heç vaxt yaddan çıxmayacaq.

Mənim özüm əslən Şamaxıdanam, amma həyat yoldaşım rəhmətlik Rafiq Əliyev Füzulidən idi. Odur ki, bizim də orada evimiz-eşiyimiz var idi. Ermənilər torpaqlarımızı işğal etdiklərinə görə nəyimiz vardısa, orada qaldı. Şükürlər olsun ki, Füzuli azad olundu. Əminəm ki, Rafiqin ruhu şaddır. Özümə söz vermişəm, qaynanamın, Rafiqin əvəzinə Qarabağda dizin-dizin sürünəcəm. Bu mənim böyük arzumdur.

Siz inanın ki, gecə mən 3-4 saat yatıram. Bütün efirlərə baxıram, saytlara nəzər yetirirəm. Ürəyim bu xəbərlərlə döyünür. O gün olsun ki, bütün Qarabağ düşmən tapdağından azad olunsun.

İnanıram ki, qələbədən sonra elə qələbə məzmunlu əsərlər ərsəyə gələcək, bizim dramaturlar, yazıçılar bu günləri qələmə alacaqlar və biz də onları səhnədə canlandıracağıq. O gün olsun, qələbə münasibətilə zəng vurasınız, mən də ürək sözlərimi deyim. Allah Ali Baş Komandanı, Ordumuzu, Xalqımızı qorusun".

**Rövşən**

## *Kann kinofestivalının rəmzi açılış mərasimi keçirilib*

**Fransanın Kann şəhərində Kann kinofestivalının rəmzi açılış mərasimi olub.**

3 gün ərzində 4 tammetrajlı ekran əsəri təqdim olunacaq və qısametrajlı filmlər arasında müsabiqə keçiriləcək. Festivalın rəhbəri Pyer Leskür bildirib ki, kinoforumun bu formatda keçirilməsi bütün kino sənətçilərinə dostluq və hörməti ifadə edir: "Burada bütün təhlükəsizlik tədbirləri görülüb. Dəvət olunanlara mütləq qoruyucu maskaların taxılması və sosial məsafənin qorunması zərurəti barədə məlumat verilib". Qısaldılmış formatda keçirilən festivalın açılış mərasimində fransalı rejissor Emmanuel Kurkolun "Zəfər" ekran əsəri nümayiş olunub. Növbəti iki gün ərzində tamaşaçılar, həmçinin yaponiyalı rejissor Naomi Kavasenin "Əsl analar" və "Başlanğıc" adlı gürcü filmini seyr edə biləcəklər.



Festivalın sonuncu günü Fransa istehsalı olan, Bruno Podalidesin "İki Alfred" ekran əsəri göstəriləcək.

Kinofestivalın təşkilat komitəsi ümid edir ki, tədbirin bu şəkildə keçirilməsi istehsalçıları yeni filmlərin buraxılışını təxirə salmamağa sövq edəcək.

## *Kitabxana Gəncə terroru haqqında videoçarx hazırlayıb*

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının informasiya - resurs şöbəsinin əməkdaşı Zəhra Cəbiyeva Gəncə terroru barədə hazırladığı videoçarxı sosial şəbəkələr üzərindən virtual izləyicilərə təqdim edib.**

Kitabxanadan bildirilib ki, videoçarxda təqdim edilən fotolar günahsız körpələri hədəfə alan erməni təcavüzkarlarının törətdiyi cinayətin sübutudur. Dünya ictimaiyyəti susmayın, baxın onların silahı körpə uşaqlara, dinc sakinlərə çevrilib. Bölgədə gərginliyin davam etməsinə səbəb olan Ermənistan silahlı qüvvələri dinc əhalini hədəfə almaqda davam edir.

Xatırladaq ki, sentyabrın 27-i səhər saat 6 radələrində Ermənistan Azərbaycanın işğal altında olan torpaqlarında yenidən atəşkəsi pozdu. Azərbaycan Silahlı Qüvvələri düşmənə qarşı əks hücuma keçdi. Əks hücum nəticəsində işğal altında olan torpaqlarımızın azad olması davam edir. Qüdrətli Azərbaycan ordusu qarşısında aciz qalan erməni silahlı birləşmələri döyüş bölgəsindən çox uzaqda olan ərazilərimizi Ermənistan ərazisindən atəşə tutmaqda davam edir. Qeyd edək ki, hərbi əməliyyatların getdiyi yerdən təxminən 100 kilometr aralıda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə Ermənistan ərazisindən raket zərbələri endirilib. Gəncədə erməni terroru nəticəsində həyatını itirən sivil və mülki şəxslərin arasında uşaqlar da var.

**MEHRİBAN**

# "Xalqımız yumruq kimi birləşib"

**"Ordumuz, həqiqətən, çox güclüdür. Peşəkar, nizam-intizamlı kadrlarla zəngin, müasir texnika, ağıllı strategiyaya malik Ordumuzla yalnız qürur duymaq olar. Həm mənəvi, həm də fiziki çəhətdən hazırlıqlı olan hər bir əsgərimizlə fəxr edirəm. Məni qürurlandıran odur ki, əsgərlərimiz döyüşə gülərək, sevinərək, böyük ruh yüksəkliyi ilə gedirlər. Baxmayaraq ki, müharibə özlüyündə çox pisdir, arzuolunmazdır, böyük itkilər bahasına başa gəlir, amma əsgərlərimiz haqq yolunda döyüşdüklərini bilir və bu onlara güc-qüvvət verir. İlqar Fəhmi demişkən, dünən başını telefondan qaldırmayan uşaqlar, bir neçə günün içində cəbhədə böyüyüb kişi oldular. Bu çox qürurvericidir. Ali Baş Komandan Ordumuzun arxasında bir sipər kimidir, əlindən gələni əsirgəmir ki, əsgərlər orada ürəklə döyüşə bilsinlər. Cənab Prezindent çalşır ki, əsgərlərin rifahı yaxşı olsun.**

Bu günlərdə xalqımız həmrəylik nümayiş etdirib, bir yumruq kimi birləşibdir. Hər kəs Orduya nəyləsə kömək etməyə çalışır. Hər kəs bacardığı qədər dəstək olur. İnsanlarımız işlədikləri sahədə daha məsuliyyətli olmağa çalışırlar. Baxmayaraq ki, dünyada pandemiya hökm sürür, bunun da öz çətinlikləri var və bizdə də öz əksini tapır. Amma bu günlərdə hər bir kəsin, uşaqdan tutmuş böyüyə kimi işinə, təhsilinə vicdanla yanaşması, həqiqətən, bu xalqın böyüklüyündən xəbər verir. Biz bütün gücümüzlə Orduya dəstək olmağa hazırıq və həmişə Ordumuzun yanındayıq.

Qələbə xəbərlərini aldıgım zaman keçirdiyim hissləri sözlə ifadə etməkdə acizəm. Hər dəfə sevincdən məni qəhər boğur. Bu, başqa bir hissdir. Heç vaxt yaşamadığım bir hiss. Bilirsiniz, insanın həyatında hansısa sevincli günləri, anları olur. Uşaqlıqda hansısa çox sevdiyin oyuncaq səni xoşbəxt edir, sonra məktəbə gedirsən, universitet tələbəsi olanda qürurlanırsan, oranı bitirib sevdiyin işlə məşğul olursan, sonra ailə qurursan, həyatın daha anlamlı olur, daha sonra bir valideyn kimi övladlarının arzularının həyata keçməsinin şahidi olursan, sevinirsən. Düşünürəm ki, bu sevinclərin hər biri daha cılızmış, evimizin qapısından kənara çıxmırmış.



Amma qələbə xəbərinin sevinci bütöv Azərbaycan boydaymış. Daha möhtəşəm, müqəddəs hiss imiş. Sözlə ifadə olunmayacaq böyük hiss imiş. Mənə yaşatdıqları bu gözəl hisslərə görə torpaqlarımız uğrunda döyüşən əsgərlərimizin hər birinin qarşısında baş əyirəm. Şəhidərimiz də var. Allah şəhidlərimizə rəhmət eləsin. Ruhları şad olsun".

**Bu sözləri "Ədalət" qəzetinə açıqlamasında Gənc Tamaşaçılar Teatrının aktrisası Zemfira xanım Əbdülsəmədova deyib:**

"Düzdür, bu günlərdə şahidi olduğum hadisələr (Gəncənin, Tərtərin, Bərdənin və digər ərazilərin vurulması) var ki, onlar məni də çox sarsıdır. Ermənilərin xislətini onsuz da yaxşı bilirdim. Tarix boyu xalqımıza qarşı etdikləri vəhşi, insanlıqdan uzaq alçaq hərəkətlərini indi də davam etdirirlər. Biz görmüşük, düşmən döyüş meydanında döyüşər. Amma bunların gücü dinc əhaliyə çatır. Şəhərləri, kəndləri bombayırlar, neçə günahsız körpənin ölümünə bais olurlar, məzarlığa mərmi atırlar. Bu vandalizmdir. İnsan, əgər onlara insan demək olarsa, gərək nə qədər şərəfsiz, murdar, qansız olsun ki, bu hərəkətləri edə bilsin. Əgər kimsə bunu edə bilirsə, bir körpəyə əl qaldırırsa, qadına, qocaya qıyırsa, demək o insan deyil.

Mən özüm Bakıda doğulub boya-başa çatmışam. Azərbaycanın demək olar ki, bütün bölgələrini gəzmişəm. O cümlədən, Qarabağı gedib görmək xoşbəxtliyi də nəsib olub. 1985 il idi. O zaman teatrımızla bərabər Şuşaya qastrola getmişdik. O yerlərin təbiətini, gözəlliyini tərif etməyə sözüm yetməz. Laçında oldum, Ağdamın Abdal Gülablı kəndində qonaqpərvər, sadə insanların qonağı oldum. İstisuda soyuq bulaqlardan su içdim, Kəlbəcərdə qayaların, daşların min bir rəngini gördüm. Cıdır düzündə oldum, o qədər hündürlükdə sanki yerə yaşıl xalça salınmışdı. Möcüzə idi. İsa bulağında, meşənin içində xanəndələrin ifa etdikləri muğamları dinlədim. Ən unutmadığım an isə Şuşadan öz əllərimlə dərdiyim Xarıbülbül çiçəyi oldu. Qayıtdığımda evdə güldanda bir xeyli qaldı Xarıbülbül. İnşaAllah tezliklə bütöv Qarabağımızı düşmən işğalından azad edərik. Tezliklə Şuşada tamaşa olmayacağımız günü səbirsizliklə gözləyirəm. Allah cəbhədəki əsgərlərimizi qorusun. İnşaAllah, hər kəs evinə, eşiyinə sağ-salamat qayıtsın. Amin. Bütün xalqıma minnətdarlıq borcum var. Allah xalqımızı qorusun".

**Rövşən Tahir**

## *Ermənilər tanınmış aktyorumuzu "öldürdü"*



**Erməni mediası tanınmış azərbaycanlı aktyor Tural Əhmədin cəbhədə "həlak olduğu" barədə məlumat yayıb.**

**Bu barədə Tural Əhməd öz sosial şəbəkə hesabında paylaşım edib. "Məni də "öldürdülər". Özü də yüksək rütbəli zabit adıyla", - o bildirib.**

**Qeyd edək ki, erməni mediası guya Azərbaycan Ordusunun itkilərini "fotofaktlarla" təqdim etməyə girişib. Beləliklə, indiyə qədər meyxanaçı Mehman Əhmədli, Aşıq Namiq, Namiq Qaraçuxurlu, hətta Toliki "öldürüblər". Bu azmış kimi, türkiyəli məşhur müğənniləri, o cümlədən Sərdar Ortaçı da azərbaycanlı əsgər çıxarıb, Qarabağ döyüşlərində şəhid olduğunu tirajlayıblar.**



## Maksim Medvedev: «İstədiyimiz nəticəni qazanacağımıza inanıram»

**"Vilyarreal"la vacib matça çıxacağıq. Rəqibimiz böyük komandadır və baxımlı oyun sərgiləyirlər".**

Qol.az xəbər verir ki, bu sözləri "Qarabağ"ın kapitanı Maksim Medvedev Avropa Liqasının qrup mərhələsinin 2-ci turunda "Vilyarreal"la keçiriləcək oyun üçün təşkil edilən mətbuat konfransında deyib. O, rəqibin güclü olmasına baxmayaraq, sabahkı oyunda yaxşı çıxış edəcəklərinə inandığını bildirib: "Çalışacağıq ki, Azərbaycanı yaxşı təmsil edək.

Baş məşqçi ilə birlikdə rəqibin oyununu analiz etmişik. İnanıram ki, sabah yaxşı oyun olacaq və istədiyimiz nəticəni qazana biləcəyik".

**Qeyd edək ki, bu gün Türkiyənin İstanbul şəhərindəki "Başakşehir Fatih Terim" stadionunda keçiriləcək "Qarabağ" - "Vilyarreal" matçı Bakı vaxtı ilə saat 21:50-da başlayacaq.**

Mərhum Məmmədov Tahir Həzrət oğluna məxsus Kürdəmir rayon, Xırdapay kəndində yerləşən 30 iyul 2001-ci il tarixdə verilmiş 07 saylı qərara əsasən JN:676, kod:90616018 saylı torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Küçeyi kənd sakini Zeynalova Könül Şəmsəddin qızına məxsus Quba rayonu Cağacıq kəndində yerləşən 0.08 ha torpaq sahəsi üçün Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən verilmiş 27.04.2018-ci il Qeydiyyat tarixli seriya RX № 1284175 ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 28.10.2020